

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azad və abad Laçına əbədi qayıdış!



4

# Azərbaycan və Tatarıstan: əsrlərə söykənən qardaşlıq, dostluq bağları

İlham Əliyev: "Bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir"



2

SƏS

№ 108 (6791)

21 iyun 2023-cü il.
Qiymәti 60 qәpik

# Ermənistan, bu təxribatların sənə baha başa gələcək!



14

## Dolların sonu?



9

## Sosial şəbəkələr xəbər istehsal edə bilərmi?




12

## Onlayn dəvətnamələrin dövrümüzdə müsbət və mənfi cəhətləri?



7



## Həccə getmək üçün əsas şərtlər açıqlandı

16

## Modriç ərəblərin 200 milyon dollarlıq təklifini rədd etdi!




16

# Azərbaycan və Tatarıstan: əsrlərə söykənən qardaşlıq, dostluq bağları

## İlham Əliyev: "Bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir"

Müstəqil Azərbaycanın Rusiya Federasiyasının bütün bölgələri ilə, eləcə də Tatarıstanla münasibətləri inkişaf etməkdədir. Hər iki dövləti tarixən səmimi dostluq münasibətləri bağlayır və tarix boyu qurulmuş əlaqələr bu gün də davam etməkdədir. Belə ki, çoxlu sayda azərbaycanlı Tatarıstanda, tatarlar isə Azərbaycanda yaşayır. Ölkəmizdə Tatarıstan Respublikasının Daimi Nümayəndəliyi, "Tuqan Tel" Tatar Mədəniyyəti Cəmiyyəti, "Yaşlek" Azərbaycan Tatar Gəncləri Mərkəzi, "Tatarıstan" İctimai Birliyi və "Ak Kalfak" Tatar Qadınları Cəmiyyətinin Bakı bölməsi fəaliyyət göstərir. İki respublika arasında iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalanıb. Bundan əlavə, hökumətlərarası





komissiya yaradılıb. Bu günlərdə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycana səfəri dostluq və qardaşlıq münasibətlərini özündə ehtiva edir. Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşündə bildirdiyi kimi, "Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir."

### "ARAZ VADİSİ" SƏNAYE PARKININ BİRİNCİ OBYEKTİ, - BU, QARDAŞ TATARISTANIN OBYEKTİDİR, - İCRA OLUNUR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılışında iştirak ediblər. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaqdır. Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşündə bildirib ki, "Araz Vadisi" Sənaye Parkının birinci obyekti, - bu, qardaş Tatarıstanın obyektidir, - icra olunur. "Yəni, biz ərazilərin bərpası işinə belə münasibətə görə çox minnətdarıq. Əlbəttə ki, biz müəyyənləşdirdiyimiz əməkdaşlıq proqramının tam həyata keçəcəyinə ümidvarıq".

Bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb. Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla, qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s. təmin edilir. Eyni zamanda, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar.

Prezident İlham Əliyev və Rəis Rüstəm Minnixanov "Avto Lizinq Azərbaycan" MMC-nin açılışını bildirən rəmzi lenti kəsiblər. Rusiya və Azərbaycan birgə müəssisəsi olan "Avto Lizinq Azərbaycan" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək. Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

### YENİDƏN QURULAN AĞALIMIZ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov yenidən qurulan və sakinlərini qoynuna alan Ağalıda olublar. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Böyük Qaydışın ilk karvanı əzəli torpağımıza yol aldı. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Xüsusi olaraq vurğulayaq ki, Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının da təməlini qoymuşdu. Artıq hər şey reallığa çevrilib. Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanova Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülən işlər barədə məlumat verilərkən bildirilib ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ümumi ərazisi 2580 kvadratkilometrdir. Bu rayonlardan olan keçmiş məcburi köçkünlərin sayı 152 min 200 nəfərdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesinə start verilib. Hazırda 86 ailədən ibarət 420 nəfər Zəngilanın Ağalı kəndinə qayıdıb və orada yaşayır. Ümumilikdə 2022-2026-cı illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayon mərkəzlərinin, 5 qəsəbənin, 24 kəndin tikintisi və Böyük Qayıdışın birinci mərhələsində 41 min 277 nəfərin köçürülməsi planlaşdırılır.

Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər Ağalını müasir şəhərə çevirdi. Azərbaycan daha bir modelini ortaya qoydu. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı oldu. Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi: "Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan ümumiyyətlə görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir". Prezident İlham Əliyev və Rüstəm Minnixanov Ağalı sakinləri ilə görüşüb söhbət edərkən onlardakı məmnunluq diqqəti çəkib. Əlbəttə ki, rahat və firavan yaşayış üçün lazım olan hər şey bu məmnunluğun yaranmasında əsas şərtdir.

### QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN HAVA MƏKANINDA SƏRBƏST VƏ TƏHLÜKƏSİZ UÇUŞLAR

Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilanda da aeroportun qısa müddətdə inşası işğaldan azad olunmuş ərazilərdə bərpa prosesinin sürətlə getdiyini bir daha təsdiqləmiş oldu. Hər iki limanın inşası həm siyasi, həm iqtisadi, həm də tarixi əhəmiyyət daşıyır. Azərbaycan azad olunmuş ərazilərə qayıtdığı kimi, Qarabağın və Şərqi Zəngəzurun hava məkanında da artıq sərbəst və təhlükəsiz şəkildə uçuşlar həyata keçirir. Tatarıstanın Rəisinə Zəngilan Beynəlxalq Hava Limanı haqqında da məlumat verilib. 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə hava limanının açılışı olub. Hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul etmək imkanına malikdir. Müasir tələblərə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərə bilər. Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin süréti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrəcəkdir. Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər. Əlbəttə ki, səfərdə olan Tatarıstan Respublikasının Rəisi real mənzərənin şahidi olub. Bu səfər ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfə verəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Hazırda erməni cəmiyyətinin müəmmalı vəziyyətdə olduğunu təkzib etmək mümkün deyil. Ermənistan ictimaiyyəti özü də bunu etiraf edir ki, ölkələri çox ağır durumda, həmçinin müəmmalı vəziyyətdədir. Hətta erməni mediasında da qeyd olunur ki, dirəniş göstərməyin mənası yoxdur və Azərbaycanla, Türkiyə ilə sülhə alternativ tapmaq mümkün deyil.**




# Azərbaycan və Türkiyə ilə sülhə başqa ALTERNATİV YOXDUR

Maraqlıdır, niyə belə bir qənaətə gəlinməlidir və nə səbəbə həqiqətən də Türkiyə və Azərbaycanla sülhün alternativi yoxdur? Hazırkı beynəlxalq vəziyyəti qiymətləndirmək belə kifayət edir ki, bu qənaətə gəlinsin. Heç bir dünya ölkəsi, heç bir beynəlxalq təşkilat Ermənistan üçün, daha doğrusu ermənilərin uydurma iddiaları, yaratdıqları mif üçün mübarizə aparmaq, yaxud öz imicini ayaqlar altına atmaq niyyətində ola bilməz. Üstəlik, Ermənistan elə bir durumdadır ki, dilemma ilə çıxış etməsi gülünc və absurd görünür. Səfalət, ehtiyac içərisində olan, yardımlar hesabına mövcudluğunu qoruyan, rüsvayçı şəkildə məğlub bir ölkə hansı iddiada ola bilər? Rəsmi İrəvan nəyi və hansı potensialı ilə imtiyaz axtarışında ola bilər? Həmin ölkə işğalçılıq siyasətindən başqa heç bir siyasət yürütməyib, beynəlxalq iqtisadi əlaqələrə sahib deyil, dünya ölkələri üçün də xüsusi maraq dairəsində olan ölkə sayılmırsa, nədən söhbət gedə bilər və hayların nəyə isə ümidi ola bilərmi?

Azacıq ağlı olan bir erməni dürüst şəkildə davranmağın vacibliyini anlamalıdır. Anlamalıdır ki, bacarıqlı olmaq, nailiyyət əldə etmək dirəniş göstərmək, proseslərə mane olmaq demək deyil. Bilməlidir ki, erməni xalqının maraqlarını nəzərə almaq üçün, ilk növbədə, erməni cəmiyyəti üçün real imkanlar barədə düşünmək, utopiyadan uzaq olmaq, ən doğru addımlar atmaq gərəkir. Bu barədə artıq Ermənistana məxsus mətbuat səhifələri də hərdən yazırlar. Yazırlar və etiraf edirlər ki, bundan sonra ən doğru addım atmaq lazımdır və bu addım məhz Azərbaycanla, eləcə də Türkiyə ilə sülh şəraitində yaşamaqdır. Artıq reallıq ortadadır və həqiqətən də Azərbaycanla və Türkiyə ilə sülhə başqa alternativin olmadığı göz önündədir, sözsüz ki, bunu dərk edənlər, başa düşənlər üçün.

Sözsüz ki, bu gün erməni cəmiyyətində hələ də uydurma iddiaları dövriyyəyə buraxıb bundan öz məqsədləri üçün istifadə etmək niyyətində olanlar var və suyu bulandıranlar da onlardır. Şəxsi mənafeləri naminə, hakimiyyət üçün erməni xalqını çaşdıranlar yalnız özlərini düşünürlər. Absurd fikirlər səsləndirənlər, sərsəm bəyanatlar verənlər üçün erməni xalqının hazırkı durumu da, gələcəyi də maraqlı deyil. Əks halda buna rəvac verməzdilər, çünki indi hər kəs başa düşür ki, işğalçılıq siyasəti Ermənistana heç nə verməyib. Hamı fərqindədir ki, qondarma iddialar, uydurma miflər haylara yalnız zərər verib və bundan sonra belə iddialar, miflər onlara yalnız fəlakət vəd edə bilər. Qonşu dövlətlərlə sülh şəraitində yaşamaqdan başqa çıxış yolu olmadığını etiraf edənlər, bunun alternativi olmadığını bildirənlər isə doğru qənaətdədirlər.

"İrəvan ilkin şərt olmadan qonşuları ilə münasibətləri normallaşdırmağa hazırdır", deyən Ermənistan prezidenti Vaaqn Xaçaturyan Almaniya prezidenti Frank-Valter Ştaynmayerlə görüşündə öz mövqeyini ən azından belə ifadə edib. Erməni xislətini nəzərə alsaq, onun nə düşündüyünü söyləmək çətindir, amma ən azından ifadə olaraq bu, çox düzgün ifadədir. Əslində, çox acınacaqlı məğlubiyyət acısı dadan, Azərbaycanın qarşısında diz çökərək təslimiyyət, kapitulyasiya sənədinə imza atan bir ölkənin prezidenti çoxdan bu qənaətdə olmalı idi. Çünki çıxış yollarının olmadığı, sülhə alternativin olmadığını anlaması üçün onun da kifayət qədər zamanı olub. Ən azından 2020-ci ilin noyabr ayından bu zamana qədər öz ölkəsinin təkcə döyüş meydanında deyil, diplomatik müstəvidə də məğlubiyyətlərini izləyən bir ölkə prezidenti çoxdan belə bir şəkildə çıxış etməli, sülh yolundan başqa yolun olmadığı haqda etiraflar etməli idi. Ölkəmizin həm mükəmməl qələbəsini, həm də qüdrətli dövlətə çevrilməsini, ümumiyyətlə, Azərbaycan-Türkiyə tandeminin gücünü nəinki dövlət rəhbərləri, ən sıravi erməni də görməyə bilməzdi. İndi sülhdən başqa yollarının olmadığını etiraf edənləri, sadəcə, gördüklərini boyunlarına alanlar adlandırmaq da olar, çünki digərləri ancaq özlərini aldadanlardır.



Vaaqn Xaçaturyanın sözlərinə cavab olaraq, Ştaynmayer də öz növbəsində qeyd edib ki, rəsmi Berlin ancaq sülhə nail olmaq səylərini yüksək qiymətləndirir. O, xüsusilə vurğulayıb ki, Almaniya hökuməti Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatlara əhəmiyyət verir. Ştaynmayer Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatı münasibətlərin normallaşması istiqamətində mühüm addım hesab etdiyini də vurğulayıb. Almaniyanın, Ermənistanla Türkiyə və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını istədiyini qeyd edən Ştaynmayer dolayısı ilə bəyan etmişdir ki, sülh ən doğru seçimdir və məhz Berlin də bu yolu dəstəkləyir.

Əslində, dünyanın ən qabaqcıl ölkələri, həmin ölkə rəhbərləri də görürlər ki, çıxış yolu yalnız sülh yoludur. Bilirlər ki, Türkiyə və Azərbaycanla düşmənçiliyi daha da təbliğ edən qüvvələrin ardınca getmək nə deməkdir və bu, haylara necə ağır başa gələ bilər, necə ki, gəlib. Bəlkə də diplomatik görüşlər fonunda hər bir ölkə rəhbərinin imkanı olsaydı, yəni buna etik normalar yol versəydi, Ermənistan hakimiyyətindən soruşardı ki, Türkiyə və Azərbaycanla düşmənçiliyi daha da təbliğ edən qüvvələrin ardınca getmək onlar üçün nəyə gətirib çıxaracağını bilmirlərmi və bildikləri halda niyə hələ də sülh məsələlərinə maneələr yaradırlar? Həqiqətən də, nəyə ümid edə bilərlər axı? Hansı alternativ ola bilər? Belə bir alternativ yoxdur axı.

Hansısa manipulyator qondarma "erməni soyqırımı"ndan dəm vurur, digəri uydurduqları tarixi torpaqlardan yalandan ağız dolusu danışır və erməni cəmiyyətinin beynini zəhərləməkdə davam edir. Bunun mənası yoxdur və bu zamana qədər həmin qorxulu nağıllara görə haylar ancaq zərərlə, itgilərlə qarşılaşıblar. Olmayan bir qondarma "erməni soyqırımı" kim tərəfindən tanınar? Hansısa ermənipərəst elə məhz erməni dəyirmanına su tökmək və nəticədə də öz dividentini əldə etmək üçün belə bir sayıqlamalara inandığını deyə bilər, amma özü belə inanmaz. Yaxud Türkiyə belə bir qondarma iddianı qəbul edə, tanıya bilərmi? Buna inanmağa, bunu iddia etməyə, kimləri isə inandırmaq cəhdlərinə axmaqlıqdan başqa nə ad vermək olar? Yaxud, Türkiyənin hansısa uydurma "soyqırım" adlı yalana görə təzminat ödəyəcəyi ümidi xəstə təxəyyül deyilmi? Türk milli mənsubiyyətli insanlara qarşı soyqırım siyasətini yürüdənlərin özlərinin soyqırıma məruz qaldıqlarını iddia etmələrinə ad qoymaq olmur.

Hansı tarixi erməni torpaqlardan dəm vurduqlarını özləri də bilməyənlər hansı torpaqların qaytarılacağını iddia edə bilərlər? Haradadır o tarixi torpaqlar? Qafqaza köçürülən hayların, özü də köçəri bir tayfanın tarixi torpağı ola bilərmi? Guya haylar bunu bilmirlər? Bilmirlərmi ki, onlara məxsus olan torpaq yoxdur? Bilmirlərmi ki, hazırda məskunlaşdıqları ərazilər belə tarixi Azərbaycan torpaqlarıdır? O halda nəyin qaytarılacağı barədə iddia etdiklərini özləri də bilə bilməzlər. Həmçinin Türkiyə dövlətinə məxsus ərazilərə də haqsız olaraq iddialı olanlar nəyə ümid edirlər? Türkiyə dövlətinin öz torpaqlarını haylara pay verəcəyini düşünürlər, yoxsa elə zənn edirlər ki, buna türkləri məcbur edə bilərlər? Hansı rakursdan baxsaq, məsələnin, iddiaların absurd olduğu özünü göstərir. Türkiyə hansısa bir geridəqalmış Afrika ölkəsi deyil ki, təzyiq edib torpaqlarına sahib çıxmaq olsun. Bunu fransalı bacılarına ümid edənlər də dərk etməlidirlər. Türkiyə çox güclü, qüdrətli dövlətdir, dünyada söz sahibi olan bir neçə dövlətdən biridir, haqqını kimsə əlindən ala bilməz və bu ölkəyə hansısa təzyiqlərə bel bağlamaq belə səfehlikdir. Həmçinin Azərbaycan barədə də eyni sözləri söyləmək olar və ölkəmizin hansı gücə, potensiala sahib olduğu bəllidir. Haylar bizə mənsub olanı mənimsəyə bilməzlər, çünki buna imkan verilməz və Azərbaycan qüdrətli bir dövlət olaraq onların məkrli niyyətlərinin qarşısını almaq əzmindədir. Üstəlik, haylar da, onların bütün dünyaya səpələnən lobbiləri, diasporları da, bütövlükdə ermənipərəstlər, erməni havadarları da Azərbaycan-Türkiyə tandemi qarşısında acizdirlər. Bunu 44 günlük müharibə dönəmində hər kəs gördü və özləri daha çox buna əmin oldular. Azərbaycandan hansısa ölkənin nə isə tələb etməsi mümkünsüzdür. ABŞ və Avropa İttifaqı indi yalnız Azərbaycanın Qarabağ iqtisadi rayonunda məskunlaşan erməni əsillilərin hüquqları barədə söz açırlar və hansısa imtiyazdan da söhbət gedə bilməz. Elə həmin o ABŞ da, Avropa İttifaqı da sülh barədə razılıdan danışır və bu fonda Azərbaycanın maraqlarının qorunması çərçivəsində sülhü dəstəkləyir. Rəsmi Bakı elə əvvəlcədən bəyan edib ki, Azərbaycan qanunlarını qəbul edən hər kəs ölkə vətəndaşlığı əldə edə bilər, əks halda ərazilərimizi tərk etməlidir. Bir sözlə, yalnız sülh şəraitində, qarşılıqlı anlaşma şəraitində birgəyaşayışın mümkünlüyündən söhbət gedə bilər və buna alternativi axtarmağa belə dəyməz.

Bəli, Ermənistanın baş naziri Nikol Paşinyan sadalanan bütün bu reallıqları anlayaraq, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Doğrudur, düzünü desək, bu, məcburi addım olaraq qəbul edilir, çünki çıxış yolunun olmadığını indi özü daha yaxşı bilir. Əks halda, həmin o sərxoş halda qol qaldırıb Azərbaycan torpaqlarında oynaqlayan biri yenə də axmaq, sərsəm fikirlər səsləndirər, mənasız, absurd bəyanatlar verərdi. İndi o çox yaxşı başa düşür ki, nə ölkəsi ölkəmizin qüdrəti qarşısında tab gətirə bilər, nə də Azərbaycan-Türkiyə tandemi qarşısında səsini belə çıxara bilməz. Yaxşı başa düşür ki, ölkəmizlə yeni müharibədə müqavimət göstərməyə belə gücü çatmaz. Üstəlik, dünyanın heç bir dövləti yeni müharibədə Ermənistanın tərəfində vuruşmaq niyyətində deyil. Ermənistan ABŞ və Avropanın gözündə Ukrayna kimi görünmür. Onlar üçün Ermənistan heç də vacib ölkə sayılmır və Rusiya ilə məsələlərə də aidiyyatlı görünmür deyə hayların yardım, dəstək gözləməsi dəryada balıq sevdasından başqa bir şey ola bilməz. İndi Ermənistan qlobal müstəvidə axına qarşı üzə bilməz. Məsləhətdir ki, yalnız axın boyunca üzməyi planlaşdırsın və bütün dünyanın gözlədiyi sülhə tərəf addımlasın. Çünki sülhdən başqa alternativi də yoxdur, əks halda, yəni axına qarşı üzmək niyyətinə düşsə batmaq təhlükəsi ilə üzləşə bilər.

***İnam Hacıyev***





# Azad və abad Laçına əbədi qayıdış!

## PREZİDENT İLHAM ƏLİYEV: "Demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu"

2020-ci ildə 44 günlük müharibədə əldə olunan şanlı qələbədən sonra növbəti mərhələ Qarabağın dirçəldilməsi və bölgədə tikinti-quruculuq işlərinin aparılmasıdır. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun bərpası, yolların çəkilişi, məktəb, xəstəxana tikintisi sürətlə davam edir, artıq sakinlər doğma yurd-yuvalarına köçürülür. Artıq Laçına da köç başlayıb. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib.

### BİRİNCİ MƏRHƏLƏ - 20 AİLƏNİN YENİDƏN QURULAN LAÇIN ŞƏHƏRİNƏ QAYIDIŞI

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanıb. Belə ki, birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. İlkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Mayın 28-də - Müstəqillik Günündə Azərbaycan Prezidenti İlham Əliyevin Laçına səfəri, orada doğma yurd-yuvasına qayıdan sakinlərlə görüşü, sadə insanların yanında olması bir daha onun Azərbaycanın güclü lideri olmasının sübutudur. Bu baxımdan, dövlətimizin başçısının rayonlarda çoxsaylı təməlqoyma mərasimləri və açılışlarda iştirakı, xüsusilə ilk 20 ailənin Laçında məskunlaşması müstəqillik günündə onun xalqımıza hədiyyəsidir. Bu gün Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər möhkəm olmasını bir daha göstərir: "Biz Laçında Prezident İlham Əliyevin açılışını etdiyi məkanları gördükcə əslində, 7-8 aya nə qədər böyük işlərin görüldüyünü anladıq. Göründüyü kimi, 7-8 ay ərzində Laçının böyük hissəsi tamamilə yenidən qurulub. İlk 20 ailə artıq Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcəklər. Prezident çıxışında bildirdi ki, birinci mərhələdə Laçında 4 minə yaxın insan məskunlaşacaq. Artıq Laçın şəhərinin Baş planı hazırlanıb. Bütövlükdə Laçında 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq. Onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq.

Prezident İlham Əliyev laçınlılarla görüşündə onu da bildirdi ki, mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub. Azərbaycan isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünləri öz doğma yurdlarına qaytarıb. Cari ilin sentyabr ayına qədər Zabux kəndi də tamamilə inşa edilib zabuxluların sərəncamına veriləcək. Çünki Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu".



Bu ərazilərdə sözsüz ki, vətəndaşlarımızın təhlükəsizliyi məsələsi də düşünülüb. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin qurulması Laçında yaşayan əhalinin təhlükəsizliyi baxımından olduqca önəmlidir. Prezident bu barədə dedi ki, sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır: "Həmçinin Prezident İlham Əliyev Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin həmçinin Xosrov bəy Sultanov, Zəngəzur, Bir Dekabr küçələrində lövhələrin açılış mərasimində iştirak etdi, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət İşğal və Zəfər Muzeyinin təməlini qoydu. Laçında İşğal və Zəfər Muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətinin və ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, Azərbaycanın haqq səsini bütün dünyaya çatdıracaqdır. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə yeni ab-hava var. Mənfur düşmənin əsarətindən xilas olan bütün yurd yerlərimizə yenidən həyat verilir. Düşmən üzərindəki tarixi Qələbəmizdən sonra ölkə başçısı dəfələrlə işğaldan azad edilmiş ərazilərə səfərlər edərək bildirir ki, Qarabağda bütün infrastruktur bərpa olunacaq.

### "DÜNYA MİQYASINDA NADİR ÖLKƏLƏRDƏNİK Kİ, İQTİSADİ CƏHƏTDƏN TAM MÜSTƏQİLİK"

Sözsüz ki, Azərbaycanın inkişafı və bugünkü səviyyəyə çatmasının kökündə Ulu öndər Heydər Əliyevin siyasəti, vaxtında verdiyi qərarlar dayanır. Bu barədə çıxışında ölkə başçısı bildirdi ki, Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu. Dövlət başçısı çıxışı zamanı onu da vurğuladı ki, danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik: "Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır. Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub". Azərbaycan Prezidentinin qeyd etdiyi kimi: "Bu gün nə müstəqillikdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq".



### "BİZ ÖZ DOĞMA TORPAQLARIMIZI İŞĞALÇILARDAN AZAD EDƏNDƏN SONRA MƏN DEMİŞDİM Kİ, QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU CƏNNƏTƏ ÇEVİRƏCƏYİK"

Dövlətimizin başçısı görüş zamanı bildirdi ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun: "Mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub, özü də yaşamayıb, bizə də yaşamağa imkan verməyib. Biz isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik".

"Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik. Danışıqlar yolu ilə olsaydı, daha yaxşı olardı, ancaq mən deyirdim ki, biz hər varianta hazır olmalıyıq və azadlıq gününü hər birimiz yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq",- deyən dövlətimizin başçısı onu da bildirib ki, danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik: "Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır".

"Laçın şəhərinin bugünkü siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız daha yenidən dirçələcək! .Və ötən bir il ərzində həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, "2023-cü il Heydər Əliyev ili" də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək.

Bir sözlə, qayıdış "Böyük Qayıdış" olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlara qayıdışını əhatə edəcək. Bu uğurlar Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin mükəmməlliyinin və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafeyini əks etdiridiyini, Azərbaycanın dünya miqyasında nüfuzunun artmasını, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrildiyini bir daha göstərir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək. Dövlət başçımızın dediyi kimi, biz işğaldan azad olan torpaqları cənnət-məkana çevirəcəyik!

**RƏFİQƏ KAMALQIZI**

I YAZI

# Qarabağ inciləri: Şuşanın dahiləri

Şuşanın suyunu içənin mütləq bir istedadı var - yazan, yaradan, bəstələyən, oxuyan, ixtira edən...

Tarixən Şuşanın suyundan içib, çörəyindən yeyən əksər şuşalının seçilən bir bacarığı olub. Səsi ilə insanları heyrətləndirən, qəzəlləri ilə ağladan, sehrli barmaqları ilə xalça üzərində xarüqələr yaradan, yaradıcılığı ilə milli ədəbiyyata misilsiz töhfələr verən bir çox məşhur insan bu torpaqlarda doğulublar.

## Şuşanın can suyu - Xurşidbanu Natəvan

Şuşanın mənəvi anası, dillərə dastan gözəlliyi və ağlı olan Xan qızı... Mehdiqulu Xan ona öz anasının adını verir, həm də tək övladı olduğu üçün "dürrü yekta", yəni tək "inci deyə" çağırır. Ömrünü Şuşanın abadlığına, əhalinin rifahına həsr edən Xurşidbanu xüsusilə Şuşadan yeddi kilometr aralı olan Sarı Baba təpəsindəki su mənbəyindən şəhərə su kəməri çəkdirdiyi üçün yerli əhalinin təqdirini qazanır. O, sonra böyük su anbarı tikdirir, hovuz, hamam və buzxana inşa etdirir. Banu, oğlu Mehdiqulu xana qırx gün, qırx gecə toy çaldırıb. O, hər gün Qarabağın bütün kasıb kəndlilərinə yemək paylayıb, toya hər dəvət etdiyi adama bəxşiş bağışlayıb.

Yaradıcılığa XIX əsrin 50-ci illərindən başlayıb. Xurşidbanunu kədərli qəzəllər, şeirlər yazmağa dərd vadar edir. Oğlu Mir Abbasın 17 yaşında vəfatı Xan qızına ağır təsir edir, bir müddət özünə gələ bilmir. Oğlunun ölümündən sonra kədərli şeirlər yazmağa başlayır və özünə Natəvan (zəif, gücsüz) təxəllüsünü götürür. O, eyni zamanda, rəssamlıqla da məşğul olub, həmçinin gözəl əl işləri, müxtəlif janrda tikmələr bacarığı da olub. Xurşidbanu Natəvanın həyatındakı maraqlı faktlardan biri də onun 1858-ci ildə onun Bakıda məşhur fransız yazıçısı Aleksand Düma ilə görüşməsi olub. A. Dümanın "Qafqaza səyahət" kitabında bu görüş haqqında məlumat öz əksini tapıb. Qarabağ əhalisinin ona olan sevgisi o qədər böyük olub ki, vəfat edəndə insanlar şairənin cənazəsini Şuşadan Ağdama qədər piyada, çiyinlərində aparıb. Xan qızı Ağdamda "İmarət" deyilən ailə qəbiristanlığında dəfn olunub.













## Azərbaycan musiqisinin atası -Üzeyir Hacıbəyov

O, Azərbaycan musiqisinin dahisi sayılır - Şuşanın pasportu, siması dahi Üzeyir Hacıbəyov.Gələcəyin musiqi dühası ilk təhsilini Şuşadakı ikiillik rus-tatar məktəbində alır. 1899-1904-cü illərdə Qori şəhərində müəllimlər seminariyasında təhsil alır, Hadrut məktəblərində pedaqoji fəaliyyətlə məşğul olur, daha sonra Bakıdakı Səadət məktəbində dərs deməyə başlayır. Onun Azərbaycan mədəniyyətinə bəxş etdiyi misilsiz xidmətlərindən birincisi 1908-ci ildə Hacı Zeynalabdin Tağıyevin teatrında "Leyli və Məcnun" operasının tamaşaya qoyması olur. Gənc Üzeyir təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyur. O, durmadan yazır, bəstələyir, musiqi sahəsində inqilab edirdi. "Rüstəm və Zöhrab" , "Şah Abbas və Xurşud Banu", "Əsli və Kərəm", "Qarun və Leyla" operaları, həmçinin xalq nağılları və əfsanələri əsasında yazdığı əsərləridir.

1911-ci ildə 26 yaşlı gənc Üzeyir əsaslı musiqi təhsili almaq üçün Moskvaya gedir, flarmoniyada təhsil alır, sonra Sankt-Peterburq Konservatoriyasında təhsilini davam etdirir. "Ər və arvad", "Arşın mal alan" musiqili komediyası, "Koroğlu" operasını yaradır. 300-dən çox xalq mahnısını musiqiyə çevirmiş unudulmaz şəxsiyyət çoxsaylı marşların, kantataların, fantaziyaların, mahnı və romansların, kamera və xor əsərlərinin müəllifidir. Bu gün ölkəmizin himninin əzəmətli musiqisi onun barmaqlarından süzülən notlarla ifa edilir.

Azərbaycan musiqi sənətində inqilab edən, yeniliklər yaradan misilsiz Ü.Hacıbəyov Azərbaycanın əməkdar incəsənət xadimi (1935), SSRİ xalq artisti (1938) fəxri adlarına layiq görülüb, Stalin mükafatı (1941), Lenin və Qırmızı Əmək Bayrağı ordenləri laureatı olub.

## Təpədən dırnağa istedad - Əbdürrəhim bəy

Naşir, dramaturq, ədəbiyyatşünas, dirijor, əməkdar incəsənət xadimi... Onun olmayan məziyyəti olmayıb. Təpədən dırnağa istedad olan Əbdürrəhim bəy Haqverdiyev Şuşa realnı məktəbində oxuyub. Əvvəlcə M.F. Axundzadənin təsiri ilə "Hacı Daşdəmir" adlı kiçik bir pyes yazır, Peterburqda təhsil alarkən onun vizit kartına çevrilən "Yeyərsən qaz ətini, görərsən ləzzətini" dramını və "Dağılan tifaq" faciəsini yazır.

Ali təhsil alıb Şuşaya qayıdan Haqverdiyev burada tamaşalar təşkil edir,var gücü ilə mədəniyyətə, incəsənətə töhfə verir, insanları bu istiqamətdə məlumatlandırır, mədəni məşğuliyyətlərə meylləndirir. 1905-ci il inqilabdan sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş Əbdürrəhim bəy Peterburqa yollanır. Duma dağılandan sonra bir müddət orada yaşayır və yazacağı "Ağa Məhəmməd şah Qacar" faciəsinə lazımlı materiallar toplamaqla məşğul olur.

Əbdürrəhim bəy Azərbaycan tarixinə həm də ilk dirijor kimi düşüb. "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri idarə edir. Bu ərəfədə "Molla Nəsrəddin" jurnalında hekayə və felyetonları çap edilir, böyük maraqla oxunur. Onun Azərbaycan ədəbiyyatına verdiyi bir-birindən qiymətli əsərləri bu gün də teatr səhnələrinin ən çox baxılan repertuar incilərindəndir.

*Lalə Mehralı*

# ”Cənubi Qafqazda proseslər Ukraynadakı xüsusi hərbi əməliyyatın nəticəsindən asılıdır”

## "Azərbaycan sazişlərdə qeyd olunan bəzi tələblərin İrəvan tərəfindən yerinə yetirilmədiyinə qərar verərsə danışıqlar prosesi pozula bilər"



**Siyasi Təhlil və Sosial Araşdırmalar Mərkəzinin baş direktoru, rusiyalı politoloq və publisist Pavel Danilin caliber.az-a qısa müsahibəsində Cənubi Qafqazda gedən proseslər, Ermənistan-Azərbaycan nizamlanmasındakı vəziyyət və gözlənilənlər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Moskva, Vaşinqton və Brüssel danışıqlarını nəzərə alaraq, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına doğru yolun hazırkı mərhələsini necə qiymətləndirərdiniz?***

- Bu gün Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması Rusiyanın Ukrayna ilə münaqişədə öz mövqeyində







israr edib-etməməsi ilə müəyyənləşir. Yəni bacararsa, o zaman müvafiq olaraq Ermənistanla Azərbaycan arasında münasibətlər daha adekvat olar. Əks halda, danışıqlar kifayət qədər uzanacaq.

***- Tərəflər sülh müqaviləsi bağlamağa yaxınlaşsalar belə?***

- Sülh müqaviləsi üfüqdə haradasa görünür, amma hər iki tərəfin hər an gərginləşə biləcəyi göz qabağındadır. Məsələn, Azərbaycan sazişlərdə qeyd olunan bəzi tələblərin İrəvan tərəfindən yerinə yetirilmədiyinə qərar verərsə, proses pozula bilər. Erməni tərəfinin gərginləşməsinə səbəb isə Ermənistanın özündə ciddi revanşist əhval-ruhiyyənin olmasıdır.



***- Ermənistanın xarici siyasəti gələcəkdə, deyək ki, hətta yaxın illərdə dəyişə bilərmi? Mən onun KTMT və Aİİ-dən çıxmaq şərti ilə Rusiya Federasiyasından yekun ayrılma ehtimalını nəzərdə tuturam...***

- Ermənistanın xarici siyasət kursu yenidən tamamilə Ukraynadakı xüsusi hərbi əməliyyatın nəticəsi ilə bağlıdır. Əməliyyat uğurlu olarsa, İrəvanın Qərbə doğru kursunda ciddi dəyişiklik olmayacaq. Əgər xüsusi hərbi əməliyyatın uğuru kifayət etməsə, Ermənistanın nəhayət, Rusiyadan ayrılaraq ABŞ-ın tabeçiliyinə keçməsi tamamilə mümkündür, xüsusən də orada bunda maraqlı tərəflər var.




***- Bəs Ermənistanın Rusiya Federasiyasının Zəngəzur dəhlizinə giriş-çıxışda sərhəd və gömrük məntəqələrində nəzarət funksiyalarından imtina etməsini necə şərh edərdiniz?***

- Məncə, bu, imkanlar və sərhədlər üçün zəminin kifayət qədər aşkar tədqiqidir. Hesab edirəm ki, belə bir addım İrəvanın maraqlarına uyğun deyil, ona görə də, əgər erməni tərəfi bunu başa düşsə, o zaman, bəlkə də, üçtərəfli sazişlərə zərbə vurmağı dayandıracaq.

***- Cənubi Qafqazda gələcək prosesləri, xüsusən də yaxın gələcəkdə Gürcüstanla Rusiya Federasiyası arasında yaxınlaşma ehtimalını necə görürsünüz?***

- Cənubi Qafqazda baş verən bütün proseslər, dediyim kimi, Ukraynadakı xüsusi hərbi əməliyyatın nəticələrindən asılıdır. Rusiya ilə Gürcüstanın yaxınlaşmasına gəlincə, mənə elə gəlir ki, Ukrayna münaqişəsində Rusiya üçün müsbət ssenari olacağı təqdirdə belə bir ehtimalı orta səviyyədən bir qədər yuxarı qiymətləndirmək olar.

***- Sizcə, Ukraynada müharibə nə qədər davam edəcək?***

- Bu suala cavab vermək çətindir...

***- Bu gün Rusiyanın taktiki nüvə silahından istifadə ehtimalı artıbmı?***

- Məncə, bəli. Artıb.

***Tərcümə - Elçin Bayramlı***



# Torpağa qayıdırıq...

MƏTANƏT

**Bu gün bazarlarımızdakı meyvə-tərəvəz bolluğu fonunda bu qənaətə gəlmək olar ki, biz torpağa qayıdırıq. Çünki torpaq müqəddəsdir, ən gözəl iş yeridir, zəhməti dəyərləndirən, əkinçini əliboş qoymayan nemətdir.**

Vaxt vardı ki, torpaqdan yaman aralı düşmüşdük. Əlimizə beş qəpik düşdümü, ya bir balaca daxmayabənzər mağaza tikib şəhərdən daşıyıb burada bir qədər bahaya satırdıq, ya da bir maşın alıb kəndlə şəhər arasında taksiçilik edirdik. Torpaqlar da qalmışdı başlı-başına. Əkən-biçənlərin sayı sürətlə azalmağa başlamışdı.

İnsanlar düşünürdülər ki, yox, torpaq işi ağır işdir, özümüzə elə bir iş tapmalıyıq ki, asan olsun, əlimiz cibimizdə pul qazanaq, ailə-uşağımızı dolandıraq. Tezliklə varlanıb mağazamızı böyüdək, maşınımızı dəyişək, özümüzə ev-eşik tikək.

Lakin bunlar boş xəyaldan başqa heç nə deyildi. Çünki yerindən qalxan bu cür mağaza açırdı, yerindən qalxan taksiçiliyə başlayırdı. Axırda mağaza əlindən də tərpənmək olmadı, taksi əlindən də. Mağaza və taksi sahiblərinin isə işi axsamağa başladı.

Nəhayət, insan övladı bir gün anladı ki, yox, belə olmaz. Bu gəlirlə nə ailə, nə də uşaq saxlamaq olmaz. Fikirləşdilər ki, torpaqlarımız qalıb boş. Bəlkə bir əkinçiliyə başlayaq, bəlkə elə dolanışıq buradadır. Bu qənaətlə də torpağa üz tutdular. Həm sağlamlığa, həm gəlirə xidmət edən torpaqlarımız isə zaman-zaman heç kimi əliboş, üzüqara qoymayıb. Elə zamanın hansı anında ona tərəf kim üz tutubsa, torpaq ona ”əz məni, əzizləyim səni”,- deyib qoynuna alıb.

Budur, bu il bazarlarımızda meyvə-tərəvəz o qədər boldur ki, adam baxdıqca ürəyi dağa dönür. Hər bir meyvə-tərəvəz isə insan zəhmətinin bəhrəsidir. Zəhmət adamının torpağa verdiyi tər, torpağınsa ona qaytardığı zərdir.

Bax, insan övladı beləcə, öz daimi iş yerini tapdı. Gördü ki, torpağın ona verdiyini, bəxş etdiyini başqa heç bir qüvvə verə bilməz. Dövlətimiz tərəfindən əkinçilər üçün yaradılan şərait-onlara güzəştli kreditlərin verilməsi, məhsullarını realizə etmək imkanının yaradılması, saxlanma anbarlarının tikilməsi zəhmət adamlarını daha da ruhlandırdı.

İndi artıq əmək adamları ailə təsərrüfatlarını qurmağa başlayıblar. ”Tək əldən səs çıxmaz” atalar misalını qulağında sırğa edən zəhmətkeşlər bütün ailə üzvlərinin köməyindən istifadə etməklə dünən fermer, ailə təsərrüfatı başçısı idilərsə, artıq bu gün onlardan onlarla sayda insan var ki, böyük sahibkarlara çevriliblər.

Torpaq ata-babadan insanın ən səmərəli qazanc yolu olub. Torpaq daim onun altını-üstünə çevirib var-dövlət sahibi olması üçün insanı səsləyib. Ağıllı insan yaşadığı kənddə başqa sahəyə üz tutmağı məsləhət bilməyib. Üz tutanlar isə yenidən torpağa qayıdıblar. Çünki torpaq daimi iş yeri, daimi gəlir mənbəyidir.

Qoy torpaqlarımız daim var, bazarlarımız isə həmişə belə bol olsun. Bizlər isə torpağın müqəddəsliyinə sayğı ilə yanaşaq ki, o, bizi hər an üzüağ etsin.

# Onlayn dəvətnamələrin dövrümüzdə müsbət və mənfi cəhətləri?

Texnologiyanın inkişafı sayəsində çox sürətli həyat yaşayırıq. Bir sözlə, hər şey daha sürətli, asan və praktikdir. Bu inkişaf nəticəsində bir sıra adətlərimiz də müasir və yeni bir forma alıb. Bura toy adətlərinə aid olan onlayn dəvətnamələr daxildir. Belə ki, artıq toyu, nişanı, xınası, hətta elçiliyi olan cütlüklər belə onlayn dəvətnamə hazırlatdırır. Artıq müxtəlif dizaynda olan kağız dəvətnamələrin sayı aza-




lıb. Düzdür, kağız dəvətnamələr tamamilə keçmişdə qalıb da demək olmaz. Çünki müasir dizaynda olan kağız dəvətnamələr də var və dəbdədir. Lakin bir çox cütlük üçün ən münasib və əlverişli variant onlayn dəvətnamədir.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Bəs, əvvəl necə idi? Təxminən 5 il öncəyə qədər dəvətnamələr hansı formada idi?

Xalqımızın toy kimi gözəl adəti var. Toydan da əvvəl bir çox proseslər olur. Bu proseslərdən ən vacibi toy dəvətnamələrinin paylanmasıdır. Siyahının tutulması, sonra isə siyahıya əsasən dəvətnamələrin yazılıb paylanması prosesin əsas parçasıdır.

## Onlayn dəvətnamə nədir?




Onlayn dəvətnamə video formatında hazırlanmış mobil cihazlara uyğun yeni nəsil dəvətnamə növüdür. Bunu ən özəl anlarınızı birlikdə keçirmək istədiyiniz sevdiklərinizə və dostlarınıza "SMS", "WhatsApp", e-poçt vasitəsilə xüsusi olaraq göndərə bilərsiniz.

Evlilikdən nişana, sünnətdən xüsusi şənliklərə və korporativ biznesdən təhsilə qədər bir çox fərqli sahədə dəvətləriniz üçün ənənəvi çap dəvətnamələrindən istifadə etmək əvəzinə yeni nəsil onlayn dəvətnamələrdən istifadə edə bilərsiniz. Bu sayədə sizinlə birlikdə görmək istədiyiniz qonaqları çox fərqli və qeyri-adi şəkildə tədbirinizə dəvət edəcəksiniz.




## Onlayn dəvətnamələrdən istifadə sahələri hansılardır?

Nişan, xına gecəsi, toy, ad günü, sünnət kimi bütün özəl günlərinizdə və ya konsertlər, festivallar, teatrlar, emalatxanalar, sərgilərdə fərdiləşdirilə bilən şablonlarla istifadəsi son dərəcə asan olan onlayn dəvətnamə son dövrlərin ən populyar dəvət növlərindən birinə çevrilib.

Bundan əlavə, onlayn dəvətnamələr biznes üçün son dərəcə faydalıdır. Onlayn dəvətnamələr həmçinin korporativ yubileylərdə, yarmarka, açılış, sammit, konqres, yığıncaq kimi bütün işlərdə, seminar, kurs və atelye kimi təlim proqramlarında istifadə olunur. Üstəlik, fərdiləşdirilə bildiyi üçün tədbirin qonaqların gözündə dəyərini artırır.

## Onlayn dəvətnamənin üstünlükləri nələrdir?

Çap edilmiş dəvətnamələrlə müqayisə-



də kağız, çap, göndərmə və çatdırılma kimi xərcləri aradan qaldırır.

. Qısa müddətdə hazırlanaraq vaxta qənaət edir.

. Təbiəti qoruyur.

. Cütlük üçün xüsusi olaraq hazırlandığından qonaqları da xüsusi hiss etdirir.

## Xüsusi hallar üçün niyə onlayn dəvətnamədən istifadə etməlisiniz?

Müştərilərinizə, həmkarlarınıza və işçilərinizə xüsusi hadisə mesajları göndərmək üçün bir çox imkanlar var. Unikal onlayn dəvətnamə bunun üçün mükəmməl bir yoldur. Bir tədbir planlaşdırırsınızsa, yeni nəsil onlayn dəvətnamələr qonaqlarınızı cəlb etmək və onları iştirak etməyə təşviq etmək üçün ən yaxşı yoldur.

## Onlayn dəvətnamə necə hazırlanır?

Dəvətnamələr arasından sizin üçün hazırlanmış şablonlardan birini seçərək dərhal dəvətinizi yaratmağa başlaya bilərsiniz. Dəvətlər arasında manqal partiləri, ev heyvanları partiləri, toylar, ad günləri, peşəkar tədbirlər kimi ağlınıza gələn hər növ tədbir üçün çoxlu dəvətnamə dizaynları mövcuddur.

Tədbirinizə və üslubunuza uyğun onlayn dəvətnamə dizaynını seçdikdən sonra dəvətnamənizdə daxil etmək istədiyiniz məlumatı, vizualları və musiqiləri redaktorla birlikdə redaktə edə, qonaq siyahınızı saniyələr ərzində sistemə yükləyə bilərsiniz. Ödəniş prosesindən sonra onlayn dəvətnamələr xüsusi olaraq kontaktlarınız üçün yaradılmağa başlayır və istədiyiniz vaxt göndərilir.

## Bəs, onlayn dəvətnamələr adət-ənənələrimizin sıradan çıxmasına səbəb olur?

**Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu öz fikirlərini bildirib:** "Onlayn dəvətnamələr adət-ənənələrimizin sıradan çıxmasına dəlalət etmir. Texniki imkanlar yaranıbsa, məsələnin mahiyyəti dəvətnamənin necə çatdırılmasında deyil. Əsas odur ki, dəvətnamə bizi məclisə dəvət edir. Dəvətnamə texniki vasitədir, onu poçtalyon da, tanış adam da gətirə bilər. Həmçinin, dəvətnaməni onlayn göndərmək də olar. Burada mən problem görmürəm. Məsələn, mənim üçün dəvətnamənin necə gətirilməsi-



nin fərqi yoxdur. Hətta onlayn dəvətnamə daha rahatdır, dəvətnaməni göndərən şəxsə də zəhmət vermirəm. Bu, əksinə, yaxşı yenilikdir. Çünki fiziki dəvətnamələr bahalı materialdandırsa, bir adam 100 nəfərin dəvətnaməsi üçün çox xərc çəkmək məcburiyyətində qalır. Amma onlayn olaraq heç bir xərc çəkmədən dəvətləri etmək mümkündür. Əsas odur ki, kim tərəfindən haraya dəvət olunduğumu bilirəm. Onun da təmtəraqlı, güllü açıqcalarla və ya məlumat kimi gəlməsinin elə də böyük fərqi yoxdur. Ona görə də onlayn dəvətləri mən əksinə, yaxşı cəhət hesab edirəm. İnsanlar maddi xərc çəkmədən və vaxt itirmədən öz məclislərinə dəvətlər edə bilirlər".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Azərbaycan və Belarus əlaqələrində faydalı tərəfdaşlıq

## İlham Əliyev: "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq birgə səylərlə gələcəkdə də hərtərəfli möhkəmlənəcək"



Müstəqil Azərbaycanın bir çox dünya dövlətləri ilə eləcə də -Belarusla olan münasibətləri möhkəm dostluğa, qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanır. Dövlət başçılarının qarşılıqlı olaraq ölkələrə rəsmi səfərləri dövlətlərarası əlaqələrə öz müsbət təsirini göstərib. Dövlətlər arasında kənd təsərrüfatı, iqtisadiyyat, hərbi-texniki, sosial-müdafiə, hüquq-mühafizə və digər sahələri əhatə edən sənədlər imzalanıb. Xatırladaq ki, 2006-cı ilin fevral ayında Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda Səfirlikləri açılmışdır. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ilin iyun ayının 11-də qurulmuşdur. Həmin zamandan 30 il ötür. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya ünvanladığı təbrikində dövlətlərarası diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə səmimi fikirlərini ifadə edərək bu əlamətdar gündə son üç onillikdə xalqlarımızı birləşdirən mehriban dostluq ənənələrinə, qarşılıqlı hörmətə və etimada əsaslanan, faydalı tərəfdaşlıq ruhunda ardıcıl olaraq genişlənən və dərinləşən Azərbaycan-Belarus münasibətlərinin yüksək səviyyədə olduğunu bildirib: "Bizim böyük inkişaf yolu keçmiş, fəal siyasi dialoqla, intensiv təmaslarla, ikitərəfli və çoxtərəfli formatlarda iqtisadi-ticari, humanitar və bir çox başqa sahələrdə məhsuldar əməkdaşlıqla xarakterizə olunan dövlətlərarası əlaqələrimiz xüsusi məmnunluq doğurur. Siz Azərbaycan-Belarus münasibətlərinin ardıcıl inkişafına, onların strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə sanballı şəxsi töhfə vermisiniz. Əminəm ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq birgə səylərlə gələcəkdə də hərtərəfli möhkəmlənəcək, xalqlarımızın və ölkələrimizin maraqları naminə yeni məzmunla zənginləşəcəkdir".

Vurğulayaq ki, 18-19 noyabr 2018 -ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri, 28-29 noyabr 2016-cı il tarixində Belarus Respublikasının Prezidenti A.Lukaşenkonun Azərbaycana rəsmi səfəri, 13-14 aprel 2021- ci il tarixində Belarus Respublikasının Prezidenti A. Lukaşenkonun Azərbaycana işgüzar səfəri bu əlaqələrin daha da möhkəmlənməsinə səbəb olmuşdur.

### "ÖLKƏLƏRİMİZ ARASINDA HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIĞIN ARTIQ YAXŞI TARİXİ, KİFAYƏT QƏDƏR BÖYÜK HƏCMLƏRİ VƏ GENİŞLƏNMƏYƏ YAXŞI MEYİLİ VAR"

Hazırda Azərbaycan və Belarus arasında bir çox sahələrdə eləcə də hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq vardır. Bildiyimiz kimi, Azərbaycanla Belarus arasında hərbi-texniki sahədə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barəsində Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Prezident çıxışlarının birində vurğulamışdı ki, bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir: "Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də, təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyili var."

Bir sözlə, Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir.

Onu da bildirək ki, Azərbaycanla Belarus beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstərir, bütün məsələlərdə bir-birini dəstəkləyirlər. "Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin, ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir", - deyə Prezident bildirmişdir.

Ölkələrimiz arasında çoxşaxəli müqavilə-hüquq bazası yaradılıb. Azərbaycanla Belarus arasında iqtisadi-ticarət əlaqələr daha da genişləndirilir. Belarus şirkətlərinin işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, investisiyaların təşviqi buna nümunədir. Hazırda Azərbaycan ilə Belarus arasında qarşılıqlı ticarət fəaliyyətində 270-dən çox müəssisənin iştirakı ilə 300 çeşiddən artıq malın iki ölkə ərazisində qarşılıqlı tədarükü həyata keçirilir. Onlarla Azərbaycan şirkəti Belarus müəssisələrinin respublikamızda qanuni nümayəndəsi və təmsilçisi fəaliyyət göstərirlər. Ölkəmizdə Belarus kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən xüsusi təyinatlı mağazlar fəaliyyət göstərir.

İqtisadi sahədə əlaqələrin genişləndirilməsində birbaşa əmtəə ticarəti ilə yanaşı, qarşılıqlı faydalı birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də getdikcə mühüm əhəmiyyət kəsb edir. Belarus maşınqayıranları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlıq sənaye kooperasiyası sahəsində səmərəli qarşılıqlı fəaliyyətin gözəl nümunəsi kimi ölkələr üçün əlamətdar layihəyə çevrilib. Belarus tərəfi Azərbaycana lift tədarükünün artırılmasında, eləcə də müvafiq istehlak həcmləri üçün onların yığılması istehsalının yaradılmasında maraqlıdır.

Təbii ki, iki ölkənin rəhbərliyi səviyyəsində sıx münasibətlər əlaqələrin demək olar ki, bütün sahələrində öz əksini tapıb.

*Zümrüd BAYRAMOVA*

# "Azərbaycan dünyada qaçqınlıqdan ən çox əziyyət çəkən ölkədir"

"Azərbaycan dünyada qaçqınlıqdan ən çox əziyyət çəkən ölkə, Azərbaycan xalqı da ən çox əziyyət çəkən xalqlardan biridir. 200 ildir ki, xalqımız öz tarixi torpaqlarında deportasiyalara, soyqırımlara, etnik təmizləmələrə məruz qalıb. Zaman-zaman xalqımız öz doğma yurdlarından erməni vəhşiləri tərəfindən qovulub. Təəssüf ki, biz son



30 ildə xalqımızın başına gətirilən müsibətləri, Qarabağ faciəsini dünya ictimaiyyətinə lazımi səviyyədə çatdıra bilsək də, Qərbi Azərbaycan həqiqətlərini kifayət qədər dünya ictimaiyyətinə çatdıra bilməmişik". SİA xəbər verir ki, bu sözləri Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Qərbi Azərbaycan İcması məhz bu vəzifəni qarşısına məqsəd qoyub: "Bizim əsas hədəfimiz son 200 ildə tarixi torpaqlarımızda soydaşlarımızın başına gətirilən faciələri dünyanın diqqətinə çatdırmaqdır. Son bir neçə ay ərzində Qərbi Azərbaycan İcması bu istiqamətdə xeyli işlər görüb. İlk dəfə olaraq İcmanın bir neçə sənədi BMT-nin tribunasından dünyaya yayılıb. Bu sənədlər BMT-nin bütün rəsmi dillərində 190 dövlət arasında yayılıb. Bu bizim üçün böyük uğurdur. Çünki ilk dəfədir ki, dünya Qərbi Azərbaycan həqiqətləri barədə bizim dilimizdən dəqiq məlumat ala bilib".

*Ləman Əlizadə*

# "Paşinyanın dediklərində səmimiyyət olmayıb"

**"Ermənistanın Azərbaycanla yenidən müharibə etmək gücü bundan sonra olmayacaqdır. Çünki 44 günlük Vətən müharibəsində Ermənistan ordusu tamamilə darmadağın edilib". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, Ermənistana öz ordusunu yenidən formalaşdırmaq üçün 10 illər vaxt lazım olacaqdır: "Amma bu, o demək deyil ki, Ermənistan ordusu 10 illərdən sonra Azərbaycanla müharibə edə biləcək gücdə olacaq. Azərbaycan ordusu da mütəmadi olaraq



müasirləşdirilir və döyüş qabiliyyəti artırılır. Belə ki, ordumuza ayrılan büdcə Ermənistanın dövlət büdcəsindən çoxdur, həm də ordumuz say baxımından da Ermənistan ordusundan dəfələrlə çoxdur. Düzdür, bu gün Ermənistan havadarlarının dəstəyi ilə ayaq üstə durmağa çalışır. Amma havadarların dəstəyi hələ ki, ancaq söz yığınından başqa bir şey deyil".

A.Badamov Ermənistanın sərhədimizdə təxribatlar törətməklə hiyləgər bir neçə məqsədi olduğunu bildirdi: "Paşinyan sülh müqaviləsinin imzalanmasını manipulyasiya etmək və vaxtını uzatmaqla hakimiyyətini əlində saxlamağa çalışır. Çünki Paşinyan hər dəfə Azərbaycanla müəyyən məsələləri razılaşdırdığını bəyan edəndə radikal müxalifət ona qarşı insanları qaldırmağa çalışır. Hətta erkən seçkilərin keçirilməsi gündəmə gətirilir. Ölkəsində vəziyyət gərginləşəndə Paşinyan təxribatlar törətmək tapşırığı verir. Təxribatların nəticələri də Ermənistana çox baha başa gəlir. Sonra da Paşinyan ictimaiyyətinə deyir ki, biz müharibə apara bilmərik. İkinci səbəb isə, azərbaycanlıların öz doğma yurdlarına qayıtması ilə bağlıdır. Azərbaycan ilk növbədə, Ermənistanla sərhəddə olan rayonları yenidən qurub bərpa edərək keçmiş məcburi köçkünlər öz ata yurdlarına yenidən yerləşdirir. Bu da sərhəd ərazilərimizdə daha güclü möhkəmlənməyimizə imkan verir. Paşinyan tapşırıqlar verərək təxribatlar törətməklə öz yurdlarına qayıdan keçmiş məcburu köçkünlərimizi qorxutmağa çalışır. Amma Paşinyan və onun havadarları Azərbaycanın bugünkü gücünü və Türkiyə ilə müttəfiqliyimizi nəzərə almalıdırlar. Bu gün Azərbaycanın ərazisini heç kim yenidən işğal edə bilməz. Əgər belə bir təhlükə yaranarsa, ordumuz o təhlükəni beşikdə boğacadır. Sülh müqaviləsinin imzalanması ilə əlaqədar Paşinyanın dediklərində səmimiyyət heç vaxt olmayıb. O bu gün bir söz, sabah onun əksini deyir. Ona görə də, yumruğumuzu həmişə möhkəm saxlamalıyıq".

*GÜLYANƏ*

# Dolların sonu?





RAKURS

ABŞ-ın milli valyutası olan dollar həm də dünyanın rezerv pul vahididir. Dünyada ticarətin mühüm hissəsinin Amerika dolları ilə həyata keçirildiyini nəzərə alsaq söylənənlərin həqiqət olduğu bir daha təsdiqlənmiş olar. Dollar dünyanın bütün ölkələrində işləkdir, ən böyük məbləğlərlə ifadə olunan neft, qaz, qızıl, o cümlədən sərmayə və beynəlxalq ticarət Amerika dolları ilə aparılır. Dövlətlərin borcları da dollarla hesablanır və ödənilir. Bu səbəbdən dollar dünyanın əsas valyutası imicini qoruyub saxlaya bilir. ABŞ dollarını dünyada hegemon valyuta kimi qoruyub saxlayan ikinci əsas amil Beynəlxalq Valyuta Fondu və Dünya Bankıdır.

Son illər ABŞ özü bəzi dünya ölkələrinə, o cümlədən Rusiyaya qarşı sanksiyalar tətbiq etməklə dolların mövqeyini zəifledib və Amerika valyutasına güvənməyin nə qədər təhlükəli olduğunu göstərib. İddia edilir ki, dolların hegemonluğu 10-20 il ərzində zəifləyəcək və o, dünya ticarətində bir çox əsas valyutalardan sadəcə birinə çevriləcək.

Beynəlxalq maliyyə dünyasında baş verən son maxinasiyalar Frensis Fukuyamanın məşhur tezisinə və ya ona bənzər bir şeyə yeni nəfəs verib. 1992-ci ildə bu siyasi filosof "Tarixin sonu və sonuncu insan" əsərində iddia edir ki, tarixin hökmünə görə, liberal demokratiya Sovet İttifaqının dağılmasından sonra ən yüksək idarəetmə formasına çevrilib. Məntiqlə belə bir nəticə çıxır ki, gələcəkdə dünyanın qalan hissəsi istər-istəməz bu idarəetmə formasını qəbul edəcək. Və bütün dünya yenidən qurulanda tarixi proses başa çatacaq. O andan etibarən və əbədi olaraq hamımız liberal demokrat olacağıq.

Geriyə baxanda Fukuyamanın tezisi həm təkəbbürlü, həm də sadəlövh görünür. Rusiya və Çin kimi ölkələrdə alternativ rejimlərin güclənməsi ilə aydın oldu ki, liberal demokratiya tarixi inkişafın məntiqi son nöqtəsi deyil. XXI əsrin gəlişi ilə belə görünür ki, siyasi təkamül, bəzi hallarda isə siyasi deqradasiya əvvəlki kimi davam edəcək. Dövlət hakimiyyətinə gəldikdə isə, tarixi proses xətti deyil, tsiklik xarakter daşıyır. 2022-ci ilin fevralında ABŞ hökuməti müttəfiqləri ilə birlikdə Rusiyanın Ukraynadakı hərbi əməliyyatına cavab olaraq Moskvanın valyuta ehtiyatlarını dondurub. Bununla ABŞ hökuməti son nəticədə qlobal iqtisadiyyatda dollar dominantlığının azalmasına gətirib çıxara biləcək hadisələrə zəncirvari reaksiya verib.

ABŞ Rusiyanın valyuta ehtiyatlarını ələ keçirməklə dünyanın qalan hissəsinə işarə etdi ki, o vaxta qədər qızıl kimi təhlükəsiz hesab edilən bir ölkənin ABŞ dolları ehtiyatı yalnız o ölkənin xarici siyasətinin ABŞ-ın razılığı ilə təhlükəsizdir. Dünya ölkələri ehtiyatları və aktivləri ABŞ dollarında saxlamağın çox riskli olduğunu anlayıblar və alternativlər axtarmağa başlayıblar. İndi isə BRİKS valyutasının yaradılması haqqında danışılıb.

ABŞ dollarının ucuzlaşması ilə bağlı bəyanatlar o qədər səs-küylüdür ki, bunlara göz yummaq olmaz. Hətta ABŞ-ın maliyyə naziri Janet Yellen bunu etiraf edir və deyir ki, biz dünya valyuta ehtiyatlarının dollarda saxlanılan nisbətində tədricən azalma gözləməliyik. Gələcəkdə dolların hökmranlığının davam edəcəyinə inanmaq istəyənlər Fukuyamanın tezisinə müraciət edirlər. Onlar dolları tarixən unikal valyuta adlandırır və dollara əsaslanan qlobal sistemi bir növ "maliyyə tarixinin sonu" kimi görürlər.

Bu insanlar iddia edirlər ki, ABŞ dolları İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra səhnəyə çıxana qədər dünya ticarətində hesablaşmalar çox mürəkkəb və əziyyətli olub. Çox vaxt tərəflər qızıldan və digər "qədim üsullardan" istifadə edirdilər. Güclü likvid kapital bazarına, eləcə də inkişaf etmiş hüquq sisteminə malik dolların meydana çıxması ilə bütün bunlar həmişəlik dəyişdi. Beləliklə, bəşəriyyət maliyyə tarixinin sonuna gəldi.

Bu fikrin ən irfanlı tərəfdarı iqtisadçı Maykl Pettisdir. O, ABŞ dollarının dünyanın ilk həqiqi ehtiyat valyutası olduğunu iddia edir. İngiltərənin dünya iqtisadiyyatını idarə etdiyi dövr haqqında Pettis yazır: "Əlbəttə, funt sterlinq Avropada ticarət hesablaşmalarında digər valyutalara nisbətən daha tez-tez istifadə olunurdu" və Napoleon müharibələrindən sonra İngiltərə Bankı böyük səylər bahasına qızıla çevrilən zaman bu valyutaya inam əldə edib. Ancaq nə vaxt İngiltərə Bankında qızılın miqdarına nisbətən sterlinqə tələb artsa, ona olan inam zəifləyirdi. Bu hallarda xaricilər adətən funtdan istifadə etməkdən imtina etməyə başladılar. , İngiltərə Bankını faiz dərəcələrini artırmağa və qızıl ehtiyatını bərpa etmək üçün tələbi tənzimləməyə məcbur edir".

"Dollar fərqli bir hekayədir", Pettis deyir. Məsələ burasındadır ki, 1971-ci ildən prezident Nikson "qızıl pəncərə"ni bağlayandan bəri dollar qızılla təmin olunmayan sırf kağız pul vahidinə çevrilib. Bu o deməkdir ki, Amerika dünyanın qalan ölkələri ilə praktiki olaraq qeyri-məhdud ticarət balanssızlığına malik ola bilər. Bu, keçmişdən tam uzaqlaşma idi ki, əgər bir ölkənin tərəfdaşları ilə ticarət kəsiri olarsa, qızıl kəsirli profisitlə ölkəyə axır. Kəsir valyutanı qızıla nisbətdə devalvasiya edir və ticarət kəsiri aradan qalxır.

Dollar hegemonluğu dövründə hər şey fərqlidir. Amerikanın, eləcə də Britaniya kimi müttəfiqlərinin ticarət kəsiri ya xaricilərə kağız pul verməklə, ya da həmin kağız pulları ABŞ-ın qiymətli kağızlarına və digər aktivlərinə yatırmağa icazə verməklə maliyyələşdirilə bilər. Pettis belə bir sistemin nə vaxtsa mövcud olub-olmayacağı sualını cavabsız qoyur. Lakin maliyyə tarixinin sonu nəzəriyyəsinin ən qeyrətli tərəfdarları iddia edirlər ki, bu ən qüdrətli sistem dünyamıza elə kök salıb ki, o, yenilməz hala düşüb. Bu reaksiya olduqca qəribə görünür. Belə bir sistemdə nəyinsə çatışmadığını anlamaq üçün iqtisadçı olmaq lazım deyil. Niyə başqa ölkələr dəyərsiz kağız müqabilində ABŞ və Qərbin qalan hissəsinə qiymətli mal və xidmətlər təqdim etsinlər?

"Maliyyə tarixinin sonu" ideyasının tərəfdarları adətən Amerikanın hərbi gücünə istinad edirlər. Bu arqument uzun müddətdir ki, ABŞ dolları sisteminin ABŞ imperializminin məhsulu olduğunu iddia edən siyasi ifrat sollardan gəlir. Amma bu, istər Amerikanın tərəfdarları, istərsə də onu pisləyənlər tərəfindən ifadə olunsun, son dərəcə primitiv bir nöqteyi-nəzərdəndir.

Amerikanın hərbi gücü ilə Amerika dollarının hökmranlığı arasında heç bir faktiki və ya məntiqi əlaqə yoxdur. Əgər bir ölkə dollardan imtina etmək qərarına gəlsə, heç kim Amerika Hərbi Dəniz Qüvvələrinə limanlarını blokadaya almağı əmr etməyəcək. Çünki bu, saf dəlilikdir. Bu köhnə və yorğun konsepsiya olaraq hərbi güc və geosiyasi təsirin bölüşdürülməsi və istifadəsi ilə bağlı son dərəcə sadəlövh fikirləri əks etdirir.

Əslində, Amerika dolları sistemi yalnız digər ölkələr onun qaydalarına razılaşdıqca davam edəcək. Niyə razılaşsınlar? Son vaxtlara qədər bunu əsasən gəlirli olduğu üçün edirdilər. 1990-2000-ci illərdə Çin başda olmaqla inkişaf etməkdə olan ölkələr öz iqtisadiyyatlarını inkişaf etdirmək və gücləndirmək üçün ABŞ dolları sistemindən istifadə edirdilər. Onlar başa düşürdülər ki, ABŞ və digər Qərb ölkələrinə sənaye məhsulları satmaqla sürətlə inkişaf edə bilərlər. Və bundan istifadə edərək klassik merkantilizm nümayiş etdirdilər.

Amma bu, əbədi davam edə bilməzdi. Bu ölkələr öz iqtisadiyyatlarını yüksəldən kimi, şübhəsiz ki, belə bir sistemdən - tədricən və ya dərhal imtina etdilər. Qərb liderlərinin bu dövlətlərin oynadıqları oyunu anlamaması göstərir ki, 1990-2000-ci illər tarixdə inadkar Fukuyam optimizmi ilə xarakterizə olunan çox qəribə bir dövr idi. 2008-ci ilin maliyyə böhranından bəri ABŞ dollarının hegemonluğu sistemi qeyri-müəyyən vəziyyətdədir. 2010-cu illərdə çinlilər iqtisadiyyatlarını gücləndirən və daxili investisiyalara arxalanan böyük ticarət profisitindən imtina etdilər. 2020-ci ilin kilidlərindən sonra və Tramp administrasiyasının proteksionist ritorikasına cavab olaraq, Çin inkişaf etməkdə olan ölkələrlə həcmini artırarkən ABŞ ilə ticarəti azaltmağa başladı.

Hətta Pettis kimi təcrübəli mütəfəkkirlər belə mühüm dəyişiklikləri görməməzliyə vurmuşdular. "Dollar hökmranlığının sonu o demək deyil ki, dünya ticarət sisteminin dollarla hesablaşmalardan digər valyutalarla hesablaşmalara rəvan və heç bir fasiləsiz hərəkət etməsi, mövcud dünya ticarət sisteminin sonu deməkdir".

Pettisin 1990-cı və 2000-ci illərdə hökm sürən sistemi nəzərdə tutduğu "mövcud dünya ticarət sistemi" böyük ölçüdə artıq fəaliyyətini dayandırıb. Bu, ABŞ dollarının yaxınlaşan çöküşü deməkdirmi? Yəqin ki, yox. Rusiyanın valyuta ehtiyatlarının ələ keçirilməsi (uzun müddət yadda qalacaq siyasət) və Çörçilin 1920-ci illərdə qızıl standartına qayıtması (tarixin ən pis iqtisadi qərarlarından biri) bu prosesi xeyli sürətləndirdi, lakin bu yaxşı heç nə vəd etmir və bu, bizim üçün qaçılmaz apokalipsisdir. ABŞ dollarının hegemonluğu yaxın 10-20 il ərzində tədricən zəifləyəcək. Qalan ölkələr qaranlıq otaqda olan kimi əllərini ovuşduracaq, hansı üsulların işlədiyini, hansının yaramadığını müəyyən edəcək. Zamanla yeni tarazlıq yaranacaq və bu vəziyyətdə ABŞ dolları dünya ticarətində çoxsaylı əsas valyutalardan birinə çevriləcək.

Belə bir mühitdə Qərb ölkələri gecikmədən işlərini qaydaya salmalıdırlar. Onlar artıq inkişaf etməkdə olan ölkələrlə böyük ticarət kəsirlərinə dözə bilmirlər. Əgər Qərb heç nə etməsə, o zaman bir gün yuxudan ayılacaq və görəcək ki, daha münasib qiymətə lazımi məhsulları əldə etmək mümkün deyil, həm də təkbaşına istehsal edə bilməyəcək.

Bu səbəbdən ciddi sənaye siyasətinə ehtiyac var. Belə bir siyasətin hazırlanması və həyata keçirilməsi üçün bizim yalnız bir cəhdimiz olduğunu söyləsək, mübaliğə olmaz. Amma hazırda nə gücümüz, nə də enerjimiz var. Qərb liderləri hələ də özlərinə gəlməyib, tarixin sonu ilə bağlı nağılların dərmanı olub və əslində yaşıl enerji kursu olsa da, sənaye siyasəti deyilən kursu davam etdirirlər.

Baydenin "İnflyasiyanın Azaldılması Qanunu"nda istehsal subsidiyalarının hər dolları üçün altı dollar yaşıl enerji və ekoloji subsidiyalar var. Tramp və Baydenin ilk növbədə Çinə yönəlmiş aqressiv proteksionist tədbirləri onların sadəlövhlüklərində intihardır. Onlar Qərb ölkələrinin ticarət axınlarına nəzarət etdiyi fərziyyəsinə əsaslanır. Amma onlara nəzarət etmirlər və heç kim onların firavanlıq yolunu kəsməyib. Bizim yalnız bir çıxış yolumuz var - yenidən qurmaq. Biz etiraf etməliyik ki, dünya dəyişir və Qərb artıq dünyada iqtisadi vəziyyətə nəzarət etmir. Biz həqiqətən öz daxili işlərimizi idarə edə bilərik. Ancaq istehsal bazamızı yenidən qurmalıyıq, xəyal dalıca qaçmaq heç bir səmərə verməyəcək.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

# Ömrümüzə gələn YAY...



**Budur, baharı yola salıb, ömrümüzə gələn növbəti yayı qarşılayırıq. Cırhacır istisi ilə insanları heç də usandırmayan, əksinə, özünü bütün fəsillərdən daha çox sevdirən yay gəlir ömrümüzə... Yaşıl rəngin bütün tonlarıyla qarşımızda gözəllər gözəli bir yay fəsli açılır. Bol günəşi, rəngbərəng gülü-çiçəyi, çeşid-çeşid meyvə-tərəvəzi ilə nə qədər gözəl, nə qədər maraqlı, nə qədər füsunkardır yay...**

Baharla payızın arasında körpü olan, öz hərarəti ilə bu iki sərin fəsli bir-birinə həmdəm edən mövsümdür yay. Yazda ağacların çiçəyinə vurulub, bu sevginin meyvələrini çiyinlərində daşıyıb payıza təhvil verən sevdalıdır yay. Yazda torpağa əkilənlərə su ilə birlikdə can verib süfrələri bollaşdıran, əkinçinin arzusunun gerçəyi, zəhmətinin bəhrəsidir yay. Toplanması payıza təsadüf edən meyvələrin, tərəvəzlərin yığımını gözləyən, götürəcəyi məhsulu realizə etməklə övladına nişan, toy etmək, cehiz almaq, him açıb bina salmaq, qarşıdan gələn qışa hazırlıq görmək istəyənlərin arzusudur yay.

Yay həm də hicranların vüsal vaxtı, şəhərlərimizdən rayonlara, kəndlərə üz tutanların ata-ana, qohum-əqrəba həsrətinin sonudur. Baba-nənələrindən uzaqda yaşayan uşaqların onların sevgisini duyduğu, tumarını gördüyü, nağılını dinlədiyi andır yay. Evlərimizin qonaq-qarası, həyətlərimizin səsi-küyü, şaqraq gülüşüdür yay. Ağacların yazda barmaq boyda yarpaqlarını isti ağuşunda böyüdüb yolçuya, əkinçi-biçinçiyə çətir edəndir yay. Yaşıl rəngi, çiçək ətri, rəngarəng mənzərələri ilə yolçunu yoldan edib, bu çətirlərin altında samovar çayına, quzu kababına qonaq edəndir yay.

Bir təbiət gözəlidir bu fəsil. Bəzən istisindən zinhara gəlib gileyləndiyimiz yay olmasa, baharda torpaqdan ancaq boylanan yaşıl çəmən heç dizə qalxarmı? Mövsümboyu üç-dörd dəfə biçilən bu çəmənlərin, düzlərin otu ilə qışboyu bazarlarımızı bol südlü, qatıqlı, pendirli, şorlu, kərəli edən mal-qaranın ruzisidir yay.



Yaylaqların sükutunu pozan qoyun-quzu mələşməsi, çobanların tütəkdə səsləndirdiyi nəğmədir yay. Eldən-elə qonaq gəlib Ulu Yaradanın təbiət bəxşişini paylaşanların qurduqları obadır yay. Ocaq çayı, ocaq yeməyi, təbiətin qoynunda açılan süfrədir yay. Dağların sinəsini, torpağın bağrını yarıb çağlayan, 38-40 dərəcə isti havada bir dəqiqənin tamamınadək əlimizi saxlaya bilmədiyimiz buz bulaqlarımızdır yay. Dağlarımızın-dərələrimizin insanlara ruzi payı olan min adda, min bir dadda bitkilərinin onlara ərmağan çağıdır yay. Bu mövsüm gözəl, təbiət möcüzəsi olan diyarımızın gəzməli-görməli yerlərinin "qapısının açarıdır". Uşaqların məktəb tətili, valideynlərinin məzuniyyət dövrü, onları birlikdə bu gözəllikləri duymağa səsləyən, istirahətə çağırışdır yay. Açın onunla "təbiətin qapılarını".

## Bakı qonaqlarını gözləyir

İlin bütün fəsillərini işləyən, yay tətilində, məzuniyyət dövründə Bakıya-bu gözəllər gözəli şəhərin turistik məkanlarını gəzməyə, görməyə gələnlərin sayı-hesabı olmur. Necə ki, şəhərdə yaşayanları yay fəslində kəndlərimizin sərin havası, saf suları, nənə-baba nəfəsi o yerlərə çəkib aparır, kəndlərimizdə yaşayan insanlar da paytaxt şəhərə gəlib gəzmək, əylənmək istəyir.

Uzun illərdir ki, Azərbaycan memarlığının nadir incisi olan, Bakının mərkəzində 22 hektarlıq ərazidə yerləşən İçərişəhər, buradakı yüzlərlə tarixi abidə turistlərin ən çox ziyarət etdiyi, xoş təəssüratlarla ayrıldıqları məkandır.

Bu şəhərə gələsən, Xəzər dənizinin kənarında nəhəng bir qayanın üzərində silindirik formada tikilmiş, Bakının rəmzinə çevrilmiş Qız Qalasını görməyəsən, bu, mümkün deyil. Elə bu səbəbdən də bu tarixi abidənin qonaqsız günü olmur, xüsusilə də yay fəslində.

XII əsrin yadigarları olan Şirvanşahlar Saray Kompleksi, Qala divarları, XV-XVI əsrlərin ərmağanı olan Kiçik Karvansaray qədim tariximizin bir parçası olaraq qonaqlara yaranma səbəbindən söhbət açır. Elə buna görə də qonaqlar bu sənət nümunələrinin necə ərsəyə gəldiyini mərhələ-mərhələ yaxından izləməkdən böyük zövq alırlar.

XVII-XVIII əsrlərdə təbii qazın çıxdığı əbədi alovların yerində inşa edilən "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu-odlar yurdunun heç vaxt sönməyən bu əbədi məşəlində küləklə odun ecazkar rəqsinə tamaşa etməkdən böyük zövq ola bilərmi? Təbii qazın çıxdığı əbədi alovlar məkanı olan "Yanar dağ"ın füsnuna tamaşa etməkdən doymaq olarmı?

Dənizkənarı Milli Park, Fəvvarələr meydanı, son illərin möhtəşəm tikililərinin hər biri, çimərliklər, parklar, xiyabanlar bu şəhərin yay əyləncəsinin ən gözəl ünvanlarıdır. O ünvanlar ki, aylarla unudulmayacaq təəssürat bəxş edir insanlara. Odur ki, gəlin, əziz qonaqalar, bu yay günlərini Bakının gözəlliklərindən zövq almaqla, bu şəhəri doya-doya gəzməklə günlərinizi mənalı edin.

## Naxçıvan yay istirahətinin ən gözəl ünvanıdır

Naxçıvana-Şahbuza gedin, dağlarının başında qışı, sinəsində yazı, çəmənlərində yayı yaşayan Batabata qalxın. "Üzən ada" möcüzəsi, Zorbulağın həzin nəğməsidir yay.



Bu əsrarəngiz havanı doyunca sinənizə çəkin. Güllərdən çələng hörün, saçlarınıza taxın. Çünki bir çələngdir yay. Sərin küləkləri ilə güllərin, çiçəklərin rayihəsini ciyərlərimizə dolduran sizə xoş anlar yaşadan andır yay.

Dəniz səviyyəsindən 2000 metrdən yüksəkdə yerləşən Ağbulağa gedin. Bu yüksəklikdən ətrafdakı cənnətməkanın seyri, Ağbulaq İstirahət Mərkəzində istirahətin ən gözəl dövrüdür yay. Ordubada üz tutun, xəfif küləyi ilə Pəzməri şəlaləsinin suyunu üzünüzə çiləyən şeh, dörd mövsümlü Göygöldür yay. Bu doyumsuz gözəlliklərin fonunda gözlərinizin bəzəyi, ruhunuzun qidası, könlünüzün həmdəmidir yay. Xan Arazın nəğməsini dinləyin. Yay bəzən sevdalanmış Arazın pıçıltısı, bəzənsə kükrəyib coşmasıdır.

*Ardı Səh. 11*

TURİZM

# Ömrümüzə gələn YAY...










Əvvəli Səh.10

Bəs Əlincə, Haçadağ? Bu dağların harmoniyası da yay sevdalısıdır. Çünki yay bu şiş, girintili-çıxıntılı dağların üzəri ilə sizləri tarixin qüruru Əlincəyə, təbiət ərmağanı Haçadağa rahatlıqla çatdıra və buradan gözəl mənzərələri qarşınızda aça bilir. Göz uzandıqca seyr edəcəyiniz, bir-birini əvəz edən gözəlliklər Turistləri bu diyara səsləyən, əsrarəngiz təbiət lövhələri, təbii məhsulları, zəngin mətbəxi ilə onları valeh edib, hər il istirahət üçün bu gözəl ünvanı - Naxçıvanı seçmələridir yay.

Günəşdən güc alıb dənizlərə, göllərə verdiyi hərarət ilə çimərlik dövrüdür yay. Uzunoba çimərliyi ilə insanlara sərin və mənalı istirahət yaşadan, hərarəti sularında qərq edəndir yay. İstirahət, əyləncə mərkəzləri kimi ünvanlarda isti, elə isti olduğuna görə də yorucu günlərinin yorğunluğunu unutdurmağı da bacarandır yay

Naxçıvan xan Sarayı, Gəmiqaya rəsmləri, Möminə xatun Türbəsi, Yusif ibn Küseyir Türbəsi tarixin ayrı-ayrı məqamlarından söhbət açıb bir yay təəssüratının mövzusuna çevriləcək, sizə istirahətlə birlikdə tarixin dönəmlərindən bilgi verəcəkdir.

## Gəlin, Şəkiyə gedək!

Şəkiyə üz tutun. Bakıdan 305 km məsafədə yerləşən Şəki şəhəri təbiəti, tarixi memarlıq abidələri, eləcə də ləziz mətbəxi ilə qonaqlarda unudulmaz təəssüratlar yaradacaq. XVIII əsrin Şəki xan Sarayı, Şəki Karvansarayı tarixin bizə bəxş etdiyi, bizimsə yaşadıb nəsillərdən-nəsillərə ərmağan etdiyimiz memarlıq ansamblларıdır. Onları öyrənmək, kəşf etmək Şəkinin gözəllikləri fonunda gözəl, həm də unudulmaz bir yay yaşamaq deməkdir.

Hələ Şəkinin Kiş kəndinin şimal-şərqində, Kiş çayının qollarından birinin sol sahilində, Qaratəpə dağının üzərində sıldırım yamaclara söykənən "Gələrsən-görərsən" qalasını demirəm. Demirəm ki, bu yay özünüz bu ünvana üz tutun, bu möcüzə ilə yerindəcə tanış olun...









## Xınalığa, Lahıça, Gəncəyə, Qəbələyə, Qusara, Naftalana üz tutaq...

Xınalıq kəndinə üz tutun. Quba şəhərindən 57 km cənub-qərbdə, paytaxtdan 225 km aralıda yerləşən, etnoqrafik bənzərsizliyi ilə seçilən bu kənd Qafqaz dağlarının uca zirvəsində amfiteatrı xatırladır. Bu gözəllikləri görmək hər kəsin haqqı və arzusudur. Cənnət Azərbaycanı qarış-qarış gəzib öyrənmək hər bir azərbaycanlının istəyidir. Belə isə Xınalığı görmək bir kitabı oxuyub başa çıxmaq kimi təsir bağışlayacaq bu yay günlərində sizə.

İsmayıllı rayonunun Lahıc qəsəbəsi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Böyük Qafqaz sıra dağlarının cənub yamacında dəniz səviyyəsindən 1505 metr hündürlükdə yerləşir. Lahıc Girdiman çayının sahilində Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunur. İki dağın əhatəsində olması Lahıca təbii qala şəraiti bəxş edir. Lahıça gedin, bu gözəllər gözəlini görün, gözünüzə işıq, könlünüzə sevinc dolsun.

Gəncə, Qəbələ, Qusar, Naftalan bu yay qonaqlarını qarşılamağa hazırdır. Bütün gözəllikləri, füsunkarlıqları, heyrətamizliyi, istirahətin sonsuz məmnuniyyəti ilə qapılarını hər kəsin üzünə açıb. Buyurun gəlin, qəlbinizi unudulmaz yay təəssüratları ilə doldurun. İl boyu bu təəssüratlarla baxın həyata. Bu baxışlarla nələrə qadir olmazsınız?..

## Bu yayı Şuşada keçirək...

Şuşaya turlar təşkil olunur. Bu turlarla gəlin, Şuşaya gedək. 30 il həsrət qaldığımız xarıbülbülün ətrini ciyərlərimizə çəkək. Şuşanı görək, azad hüsnünü hafizələrimizə köçürək. Erməni yağılarının bu dağlar gözəlinin hüsnünə qəddar əlləri ilə vurduğu yaraları göz yaddaşımıza köçürək. Övladlarımızı aparaq Şuşaya, görsünlər bütün bunları. Tariximizi yaşadaq.

Ümumilikdə Qarabağa yay səfərlərimizə yaxın gələcəkdə başlayacağıq. Dövlətimiz bütün bunlar üçün Qarabağı abadlaşdırır, minalardan təziləyir. Biz gələn illərdə yay günlərimizi Qarabağda keçirəcəyik. Bu o qədər unudulmaz bir yay olacaq ki?..

Azərbaycanın haqqında bu kiçik yazıda bəhs etmədiyimiz digər bölgələri var ki, hər biri nəinki yayın, görd fəslin gözəli, istirahət ünvanlarıdır. Bütün bunları oxucularımız da gözəl bilir. Bəlkə də hələ o ünvanları bu yay tətili üçün seçiblər də. Bəli, seçimlər də, arzular, istəklər də fərqlidir. Ta ki bu yayın isti günlərində istirahətlərimiz ürəyimizcə olsun.

Hə, isti demişkən, istisindən şikayətlənib, hər an bitməsini arzulayan bizlərin heç özümüzün də fərqində olmadığımız qədər sağlamlığımızdır yay. Qızmar şüaları ilə ətrafdakı virusları məhv edən, immunitetimizi artıran, orqanizmimizi möhkəmləndirən, bizi qarşıdan gələn payızın, qışın sazağına-soyuğuna tablaşmağa hazırlayan "həkimdir" yay. İstidir, bəli, amma mənalıdır, özünəməxsusdur.

## Yay xatirələr toplusudur

Budur, ömrümüzə bir yay öz qədəmlərini qoyur... Xatirələrə rəssamı özü olan gözəl bir təbiət mənzərəsi həkk edən yay. Bu mənzərədə yaşılın bütün tonları bir-birini əvəz etdikcə, digər rənglərin harmoniyası yaşılın gözəlliyini, cazibədarlığını bir qədər də üzə çıxarır. Təkrarsız bir təbiət lövhəsidir bu mənzərə. Yayın var olduğunu, yaşandığını və nəhayət, ömrümüzdə bir ilin bir fəslini də səciyyələndirən lövhə. Bu mənzərə həm də xatirələr toplusudur. Hər kəsin bir yay təəssüratı olan toplu. Vərəqləndikcə ömrün bu yayının nə anları olacaq bu topluda

***Mətanət MƏMMƏDOVA***

# Sosial şəbəkələr xəbər istehsal edə bilərmi?

## Əslsiz xəbərlər, təsdiqsiz məlumatlar, şayiələr və qarayaxmalar fonunda inkişaf edən sosial şəbəkə xəbərçiliyi peşəkar jurnalistikanın önünü kəsir








"Smart Insights"in məlumatlarına görə, hazırda dünyada 4,62 milyard sosial şəbəkə istifadəçisi var, aktiv internet istifadəçisinin sayı isə 5 milyarda yaxınlaşıb. İstifadəçilərin sayı artdıqca insanların sosial şəbəkələrdə keçirdikləri vaxt da artır. Hesabata görə, insanlar gündə təxminən 2,5 saatını sosial platformalarda keçirirlər. Sosial şəbəkələrdən istifadənin sürətlə artması ilə paralel sistemin özü də yeni tendensiyalarla durmadan təkamül edir və dəyişir. Dəyişiklik üzvlərdə də hiss olunur. İndi hər sosial şəbəkə istifadəçisi əlinə bir kamera, telefon alıb öz kanalı üçün material hazırlayır, gördüyünü çəkir. Onların arasında gördüyünü doğru şərh edib normal məlumatlandırma edənlər də var, məsələnin əslindən xəbərsiz olub inananları yanlış yönləndirən də.

### Hər kəs düşündüyünü yazmaqda sərbəstdir, bəs şayiə yaysa necə?

Hər kəsin öz fikir və mülahizələrini söz, yazı, şəkil və ya digər vasitələrlə ifadə etmək və yaymaq hüququ var. İnsan fikrinə və düşüncəsinə müdaxilə mümkünsüzdür. Söz azadlığı və düşüncənin sərbəst ifadə edilməsi, problemsiz yayılması cəmiyyət üçün son dərəcə vacibdir. Fikir və söz azadlığı özlüyündə bir məqsəddir, fiziki və mənəvi azadlıq demokratik həyat tərzinin vacib elementidir. Hər hansı bir ölkənin daxili qanunvericiliyində söz, düşüncə və mətbuat azadlığının kifayət qədər təmin edilməyəcəyi düşünülərək, bu azadlıqlar beynəlxalq hüquq normalarına da daxil edilib, beynəlxalq müqavilələrin predmeti kimi qəbul edilir.

Demokratik hüquqi dövlətdə söz azadlığının əhəmiyyəti danılmazdır və ona görə də söz və düşüncə azadlığının məhdudlaşdırılması məsələsinə həssaslıqla yanaşılmalıdır. Çünki söz azadlığını məhdudlaşdırmaq dolayısı ilə bir çox başqa azadlıqları məhdudlaşdırmaq deməkdir. Lakin hər məlumatı "söz azadlığım var" deyə yaymaq da olmaz. Bu səbəbdən, ifadə azadlığının da sərhədləri olduğu qəbul edilməli və bu məhdudiyyətlər qanun çərçivəsində təyin edilməlidir.

Əslində, ifadə azadlığı demokratik cəmiyyətin əsas xüsusiyyətlərindən biri olsa da, bu azadlığı "vətəndaşın öyrənmək istədiyi hər şeyi bilmək hüququ var" kimi şərh etmək olmaz. İfadə azadlığının müvafiq müddəalar çərçivəsində məhdudlaşdırılması ehtimalına qarşı bəzi məhdudiyyətlər də mövcud olur. Dünya ölkələrinin hər birində bu məhdudiyyətlərin əhatə dairəsi və onların təyin edilməsi vasitələri ilə bağlı qanunlar var. Dünyada müxtəlif qeyri-hökumət təşkilatları ölkələrdə mətbuat azadlığının olub-olmaması ilə bağlı müxtəlif meyarlar əsasında qiymətləndirmələr aparır.

### Media və fikir azadlığı

Söz azadlığının öz sərhədlərindən uzaqlaşabilmə ehtimalına qarşı bəzi məhdudiyyətlər də mövcud olur. Dünya ölkələrinin hər birində bu məhdudiyyətlərin əhatə dairəsi və onların təyin edilməsi vasitələri ilə bağlı qanunlar var. Dünyada müxtəlif qeyri-hökumət təşkilatları ölkələrdə mətbuat azadlığının olub-olmaması ilə bağlı müxtəlif meyarlar əsasında qiymətləndirmələr aparır.

Məsələn, Sərhədsiz Reportyorlar hər il Mətbuat Azadlığı İndeksini dərc edir. Bu indeks 180 ölkədə jurnalistlər arasında keçirilən sorğu vasitəsilə plüralizm, media müstəqilliyi, media mühiti və özünüsenzura, qanunvericilik bazası, şəffaflıq, xəbər və informasiya istehsalına dəstək verən infrastrukturun keyfiyyəti meyarlarına əsasən qiymətləndirilir.

Sosial şəbəkələrdə bir fikir yüzlərlə insan tərəfindən fərqli qəbul edilə, fərqli izah edilə bilər. Birinin qara dediyinə başqası ağ deyə, fikrini əsaslandıra, sübut edə bilər. Düşüncə və fikir azaddır. 4-cü hakimiyyət hesab olunan KİV dünyada demokratiya və informasiya azadlığının mühüm atributu hesab edilir. Kiminsə şərəf-ləyaqətini alçaltmadıqca, dövləti və ictimai xadimləri təhqir etmədikcə, ictimaiyyətə zərərli fikirlər aşılamadıqca heç bir cəmiyyətdə heç kimin söz azadlığı əlindən alına bilməz.

### Sosial şəbəkədə xəbər paylaş, xəbərçilik etmə

Sosial şəbəkələr çox şeyi həm yazılı, həm görüntülü paylaşmağa imkan verən ən ideal mühitdir. Əvvəl kommunikasiya ənənəvi yollarla təmin edilirdisə, bu gün sosial media bu işdə şəriksiz liderdir. Sosial şəbəkələr ünsiyyət üsulu olaraq dözümlülüyə malikdir, sıradan çıxmır, köhnəlmir, davamlılığı itmir. İnsanlar dünyanın istənilən yerində istənilən şəxslə dostluq qura bilir. Xüsusilə məhdud fiziki imkanlara malik insanlar üçün sosial şəbəkələrin əhəmiyyəti böyükdür. Sosial şəbəkələr həm də ən böyük marketinq imkanları yaradan vasitədir, insan bu imkanlarla özünü inkişaf etdirə, istehsal etdiyi məhsulu tanıda, sata, ala bilir.

Qəzet jurnalistikasını bir addım qabaqlayan sayt, televiziya jurnalistikası öz növbəsində sosial şəbəkə xəbərçiliyinə uduzur. İndi kütləyə ən sürətli nüfuzetmə liderliyi sosial medianın əlindədir. Əgər bir sosial şəbəkə hesabın varsa, eyni zamanda, həm qəzetin, həm saytın, həm televiziyan, həm də radion var deməkdir. Hər gün yeni funksiyaları yaradılan sosial şəbəkələrin sərhədsiz inkişafı jurnalistikaya da təsirsiz ötüşmür. Günün istənilən saatı, istənilən yerdən canlı yayım edə bilmək funksiyası isə sosial şəbəkələrin liderliyini bir daha təsdiqlədi. Lakin...

Sosial şəbəkələrin yaratdığı bu media növü peşəkar jurnalistikanı sıxışdırmaqla yanaşı, qeyri-peşəkar bir media yaratmaqda israrlıdır. Əsası olub-olmadığını araşdırmadan, hay-küylə, yalançı həyəcanla, saxta oxunma sayı ilə özünü sosial şəbəkə fenomenləri adlandıran bir qisim istifadəçi peşəkar mətbuata əslində mane olur. Beləcə əslsiz, təsdiqsiz, şayiələr, qarayaxmalar fonunda inkişaf edən sosial şəbəkə xəbərçiliyi peşəkar jurnalistikanın və medianın inkişafına mane olur.

Doğrudur, sosial şəbəkələr həyatımıza olduqca rahatlıq gətirdi, həm fikrimizi çatdırmaq, həm yeni fikirlərlə tanış olmaq üçün əlverişli ünsiyyət vasitəsidir. Onun vasitəsi ilə sürətli informasiya axınına müdaxilə edə, informasiyanı istədiyimiz şəkildə manipulyasiya edə bilirik. Amma pis tərəfi də var ki, bizə özümüzü dəyişdirmək və virtual aləmdə olmaq istədiyimiz simanı yaratmaq imkanı da verir. Etiraf etmək lazımdır ki, sosial şəbəkələrin yaratdığı dəyişiklik, real həyatdan fərqli qaydalar və avatarların arxasında gizlənməyimiz gerçək "mən"imizi korlayıb. İndi biz fərqindəyik ki, informasiyanı manipulyasiya edə bilməklə yanaşı, istədiyimiz şəkildə informasiya istehsal edə və istehsal etdiyimiz məlumatlarla kütlələri idarə edə bilirik.

***Lalə Mehralı***



İLHAM

## Turizm məkanları və restoranlar "əl yandırır"

**Yayın gəlişi ilə bir növ həyat qaynayır. İnsanlar günəşin yandırıcı şüasından, şəhərlərdəki baş gicəldən istinin təsirindən qısa müddətli də olsa yayınmaq üçün sakit guşə axtarır. Təbii ki, ağlına gələn ilk ünvan rayonlar olur. Problem də elə ünvanların axtarışı zamanı üzə çıxır. İstirahət mərkəzlərində qiymətlər o dərəcə də bahadır ki, hərdən düşünürsən ki, həmin istirahət mərkəzinin sahibi ya avropalıdır, ya da şəriki varlı-karlı amerikalıdır.**

Lakin araşdırma aparıb, onun-bunun ağzını arayıb, söhbətə tutandan sonra öyrənirsən ki, istirahət mərkəzinin sahibi heç də əcnəbi deyil, elə azərbaycanlıdır. Sadəcə, ğəmmaməsi ondan ibarətdir ki, bu azərbaycanlı iş adamı özünün istirahət mərkəzində tətbiq etdiyi qiymətləri xaricdəki qiymətlərə uyğun tətbiq edir. Bu da ki, heç yaxşı hal deyil. Niyəsini də hər kəs bildiyi üçün uzunçuluq edib, oxucunu yormayacam. Ancaq onu qeyd etməliyəm ki, restoranlarda, istirahət mərkəzlərində qiymətlər çox baha olduğundan gözünü aylıq məvacibinə dikən aztəminatlı təbəqə üçün əlçatan deyil. Turların qiymətləri o dərəcədə bahadır ki, Antaliyaya, Bodruma, hətta Maldiv adalarını kölgədə qoyur. 7 gecə 8 günlük Antaliyaya və ya Bodruma 2 nəfərlik tur 1300 ABŞ dollarıdır. Buraya aviabilet, oteldə gecələmək və qidalanma daxildir. 7 gecə 8 günlük Şəki, Zaqatala və ya Qəbələyə 2 nəfərlik tur isə hər şey daxil 1800-2000 AZN təşkil edir. Sual oluna bilər, niyə ölkəmizdə turizm mərkəzləri kasıb təqbəqənin üzünə bağlıdır? Nədən qiymətlər əl yandırır? Niyə görə, müvafiq dövlət qurumları, xüsusilə də Turizm Agentliyi qiymətlərə bir əncam çəkmir. Düzdür deyə bilərlər ki, sahibkarlıq subyektləri müstəqil və azad fəaliyyət imkanlarına malikdirlər və onların işlərinə kənar təsirlər ola bilməz. Bəlkə də haqlıdırlar. Lakin turizm məkanlarının sahibləri ilə maarifləndirici söhbətlər aparmaq və onlara qiymətlərlə bağlı tövsiyələr vermək olar. Necə ola bilər ki, istirahət mərkəzləri dövlətdən güzəştli kreditlər alırlar və müəyyən hallarda onlara dəstək göstərilir, ancaq qiymətlərin kasıb təqbəqinin cibinə uyğun qurulması məsələsi gələndə kənara çəkilirlər. Ağızdan ağıza eşitdiyimə görə, ölkəmizdə restoranlar var ki, qiymətlər "ceyran belindədir". And-aman edirlər ki, restoranların girişinə pul alırlar, menyu-zad deyilən şey yoxdur. Daha doğrusu menyu var, sadəcə, orada qiymətlər yazılmayıb. Yeyib, içib çıxdıqdan sonra qiymət oxumaq qalır restoran işçilərinin insafına. İnsanların boyuna-buxununa, üzünə-gözünə baxıb qiymət deyirlər. Mədəd adlı bir tanışım deyir ki, Bilgəh tərəfdə restoran var ki, iki nəfərin ora girib çıxması onlara ən azı 2500-3000-ə başa gəlir. İnanmağım gəlmirdi, Sabir adlı bir dostumuzun tanışı da söylədi ki, Bakı şəhərində elə bərkgedən restoranlar var ki, orada 4 nəfərin qarnını doydurması, hesabı ödəyənə 5 min manata başa gəlir. Açığı başqa xəbərlər də eşitmişəm. Kasıb və imkansız oxucularımıza pis təsir edə biləcəyini nəzərə aldığımdan həmin xəbərləri yazmağı məqsədəuyğun hesab etmədim. Lakin bir məlumatı eşitdim və inanmağım gəldi. Qismət adlı dostum deyir ki, Bakı metrostansiyasının İçərişəhər qoruq idarəsinin əzəmətli divarları ilə üzbəüz yerləşən parkdakı restoranda 3 nəfəlik dostu ilə nahar etmələrinə peşman olublar: "Nəzərdə tutmuşduq ki, hesabımız 35-40 manat edəcək, lakin işbazlar bizdən 165 manat tələb etdilər. Suallarımız çox oldu, qəzəbli şəkildə bizə göz ağardıb qısaca dedilər ki, qiymət budur ödəyin, çıxın gedin". Qismət yanayana deyir ki, "evdən, oradan-buradan pul gətizdirib, restoranın ödəniş tələbinə əməl etdik".

Bəzən belə də olur, yeyib-içmək çox asandır və yaxşıdır. Gərəkdir ki, sonda burnundan gəlməyə. Necə ki, dostumuz Qismət neçə gündür ki, ödədiyi 165 manata görə qanıqara və bikefdir.

# Tolerantlıq və humanitar əməkdaşlıq mərkəzi

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 22 il ötür



Azərbaycanda tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müxtəlif tərəflərin bir araya gəlməsi istiqamətində həyata keçirilən tədbirlər, görülən işlər ölkəmizin dini tolerantlığın ünvanına çevrilməsində mühüm rol oynayır. Son illərdə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlara ev sahibliyi edən paytaxt Bakımız beynəlxalq aləmdə mədəniyyətlərarası dialoqa öz töhfəsini verib və bu proses davam etməkdədir. Azərbaycanda din sahəsində aparılan dövlət siyasətinin, ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa dəstək verməsinin beynəlxalq aləmdə təbliğ edilməsi, ölkəmizin tolerantlıq təcrübəsinin yayılması baxımından Dünya Dini Liderlərinin Bakı Sammiti, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, "Dövlət və din: qloballaşan dünyada tolerantlığın gücləndirilməsi" Beynəlxalq Bakı Forumu və digər beynəlxalq tədbirlər əhəmiyyəti baxımından təqdirəlayiqdir. Tolerantlıq əlbəttə ki, hüquqi dövlətin yox, mədəni və mənəvi cəhətdən inkişaf etmiş cəmiyyətin məhsulu kimi səciyyələndirilir. Bütün bunlarla yanaşı, bu və digər tədbirlərin təşkili Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqinə, müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verilən töhfələrin davamıdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir".

### TOLERANTLIQ MÜHİTİ DÖVLƏT-DİN KONSEPSİYASINA UYĞUN DAHA DA MÖHKƏMLƏNİB

Ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına töhfələrini verən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından artıq 22 il ötür. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixində yaradılıb. Müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Dövlət Komitəsinin yaranması barədə fərmanla Komitənin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoyuldu. Beynəlxalq aləmdə, xüsusilə regionda və ölkədə gedən proseslər, eləcə də dini durumda baş verən hadisələr Ümummilli Liderin bu qərarının nə qədər müdrik addım olduğunu bir daha təsdiqlədi.

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb.

Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur. Dini maarifləndirmə işini Komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də televiziya proqramları vasitəsilə də aparan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında dini radikalizmin, xurafatın törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha aydın şəkildə çatdırmaq, həmçinin, bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır" və digər sənədli filmlər çəkilərək geniş ictimaiyyətə təqdim edilib. Komitənin aidiyyəti qurumlarla birgə təşkilatçılığı ilə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" və s. mövzularında beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirib.

Müasir dünyamızda Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Şəmkir və Göygöl rayonlarında kompakt halda yaşamış alman-lüteranlar II Dünya müharibəsi zamanı Sovet hakimiyyəti tərəfindən deportasiya edilmişdilər.

Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir. İbadət evləri ilə yanaşı, respublikada xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən pravoslav kilsələri yanında bazar günü məktəbləri, protestant icmalarının Bibliya kursları, yəhudilərin ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları və s. fəaliyyət göstərir.

Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Təsadüfi deyil ki, xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Azərbaycanda yaşayan yəhudilər hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq dualar edirlər.

### QARDAŞLIĞIMIZIN VƏ TOLERANTLIĞIMIZIN SİMVOLU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi.

Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb.

Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda həmrəylik nümayiş edərək vuruşdular. Azərbaycanda yaşayan və savaşda yanımızda olan müxtəlif xalqların nümayəndələri də şəhidlik zirvəsinə ucaldılar. Bu qardaşlığımızın və tolerantlığımızın simvolunun daha bir nümunəsidir. Müasir dövrümüzdə ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzidir.

*Zümrüd BAYRAMOVA*

ANALİTİK+AKTUAL

# Ermənistan, bu təxribatların sənə baha başa gələcək!

**İrəvanın havadarları bu ölkənin Azərbaycana qarşı yürütdüyü 30 illik işğalçılıq siyasəti dövründə niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nəyə görə müdafiə etmirdilər?**







Son günlər baş verən növbəti erməni təxribatından sonra rəsmi İrəvan da daxil olmaqla, sanki Ermənistanın ictimai-siyasi rəyində revanşizm hissləri yenidən alovlanmağa başlayıb. Əslində, revanşizm hissi daha əvvəllər də olub. Belə ki, 2020-ci ildəki acı məğlubiyyətdən və hərbi-diplomatik iflasdan sonra Ermənistanda revanşizm meyilləri, əsasən, müxalifət qüvvələrində cərəyan edirdi. Lakin həmin meyillər zaman-zaman hakimiyyətdə də yaranmağa başladı ki, reallığa qalanda bunun daha bir səbəbi regionumuzda maraqları olan bir sıra xarici ermənipərəst dairələrin fəallaşmasıdır. Xüsusilə, Qərb dairələrində yer alan erməni havadarları Cənubi Qafqaz maraqlarının təmin olunması üçün Ermənistanın düşdüyü acınacaqlı vəziyyətdən öz səmərələri üçün istifadə etməyə cəhdlər göstərirlər.

### Belə olmasa idi, Ermənistan regionda gərginliyin qalmasında maraqlı olmadığını sübut edər, sülhə doğru real addımlar atardı

Bütün bunların ardınca isə Ermənistan açıq şəkildə və nümayişkəranə olaraq 2020-ci ildə və ondan sonra əldə olunmuş razılaşmaları - bəyanatları və danışıqlarda razılaşdırılmış digər məqamları rədd edir, hətta şərtlər belə irəli sürməyə cəhd göstərir. Misal üçün, Ermənistanın üçtərəfli bəyanatda əksini tapmış tələblərin icrasından boyun qaçırması ən başlıca məqamlardan biridir. Ermənistan hələ də qəsdən və bilərəkdən Azərbaycan ərazisində qalmış silahlı qüvvələrinə məxsus hərbçilərini və texnikalarını çıxarmır, müxtəlif yollarla Qarabağda hərbi mövcudluğunu qoruyub saxlamağa və gücləndirməyə çalışır, Qarabağdakı separatçılar İrəvanın tapşırıqları əsasında ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı sərsəm bəyanatlar səsləndirir, Ermənistanda isə həmin bəyanatlar ölkə rəhbərliyi tərəfindən dəstəklənir və s. Daha bir diqqətçəkən nüans budur ki, Ermənistan təxribatların törətməsi ilə qarşıdurmaların pik həddinə çatmasına zəmin yaradır və artıq kifayət qədər məlum olur ki, onlar sülhə hazır deyillər və bu kimi təxribatları ilə müharibə mümkünlüyünü artırırlar. Əgər belə olmasa idi, Ermənistan regionda gərginliyin qalmasında maraqlı olmadığını əməli qaydada isbatlayar, sülhə doğru addımlarını artırardı.

Fakt budur ki, müharibə və təxribat ab-havasını saxlamaqla, Ermənistan beynəlxalq ictimai rəylə manipulyasiyalar edir və həmin vasitələrlə Azərbaycanı hədəfə gətirməyə çalışır.

Xarici havadarları isə necə deyərlər, İrəvana ürək-dirək verir, Azərbaycan əleyhinə müxtəlif bəyanatlar səsləndirməklə odun üzərinə benzin tökməklə məşğul olurlar

Beləliklə, Ermənistan hazırda işğaldan azad olunmuş ərazilərdə görülən nəhəng işlərin miqyasını aydın görür, Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyasının qaçılmaz olduğunu bilir və məhz bu kimi əməlləri ilə mövcud prosesə zərbə vurmağa cəhdlər göstərir, xarici havadarları isə necə deyərlər, İrəvana ürəkdirək verir, vəziyyəti gərginləşdirirlər.

Daha bir məqama diqqət yetirək: bu, Ermənistanın illər boyu ona əl uzadan və kömək edən, ayaqda saxlamağa şərait yaradan ölkələrə qarşı xəyanət etməsi, açığını desək, istənilən anda kürəyindən xəncər saplaması faktıdır. Misal üçün, əgər əvvəlki dövrlərdə Ermənistan Rusiyaya arxalanır və işğalçılıq siyasətini davam etdirirdisə, son hadisələr artıq bu ölkənin oriyentirlərini dəyişdiyini və açıq şəkildə Qərbdə dəstək axtardığını göstərdi. Ölkənin baş naziri Nikol Paşinyanın, təhlükəsizlik şurasının sədri Armen Qriqoryanın, xarici işlər naziri Ararat Mirzoyanın, müdafiə naziri Suren Pakikyanın ABŞ-a, Fransaya və s. Qərb ölkələrinə səfərlərinin ardınca onların özlərinə arxayın şəkildə sərsəm bəyanatlar verməlari də, məhz bu xüsusa söykənir.

### Bu regionun, ümumiyyətlə, həmin dairələrə nə aidiyyatı var, nə də ehtiyacı!

Hələ bu da azmış kimi, Ermənistan artıq militarizasiya faktını reallaşdırmağı düşündüyünü gizlətmir. Xüsusilə, Fransa ilə hərbi əlaqələrini möhkəmləndirməsi cəhdləri də bu cür düşünməyə əsas yaradır. Halbuki, bu regionun, ümumiyyətlə, həmin dairələrə nə aidiyyatı var, nə də ehtiyacı. Region yalnız ona bağlı olan qonşu ölkələrin səyi, sülh məqsədli, inkişaflı səyləri ilə öz sabitliyini təmin edə, inkişaf yolunu tuta bilər. Lakin bütün bu imkanların mövcud olmasına baxmayaraq, İrəvanın xülyalara dalan oyunbazlıqları münbit prosesi əngəlləməyə hesablanıb. Daha dəqiq desək, Ermənistanın bu manipulyasiya, təxribat və hərbi-siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək, hətta mümkündürsə iflasa uğratmaqdır. Artıq faktdır ki, Ermənistan regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir və açılan yeni perspektivlərə zərbə vurmağa çalışır. Bu məqamlar isə, əslində, Ermənistanın özünü dalana doğru sıxışdırılmasına zəminlər yaradır. Çünki nə Azərbaycan, nə Rusiya, nə də Türkiyə kimi regionun aparıcı dövlətləri onun məqsədlərinin reallaşmasına əsla imkan verməz.

### Bakı sizin cavabı gözləyir...

Təəssüf ki, dünya güclərinin bir qismi Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görmürlər və onlar başlıcası ilə real həqiqətləri açıq gözlə görməli, İrəvanın əsl niyyətlərini düzgün qiymətləndirməli, Ermənistanı bu iddialardan əl çəkməyə məcbur etməklə sülh prosesinə öz töhfələrini verməlidirlər. Ancaq əfsuslar olsun ki, bizlər bunu müşahidə etmirik və səbəblərini də yazının əvvəlində qeyd etmişik...

Əgər bu gün müxtəlif ölkələrdə - əsasən, ABŞ Konqresində və Nümayəndələr palatasında, Fransa senatında, Avropa parlamentinin bəzi dairələrində Ermənistanın regiondakı sabitliyi, sülh çağırışlarını pozmağa yönəlmiş addımlarına dəstəklər göstərilirsə, tarixi Azərbaycan torpaqları, yaxud sərhədləri Ermənistanın "suveren ərazisi" kimi göstərilirsə, onda belə addımların birbaşa Azərbaycanın ərazi bütövlüyünə təhdid kimi qiymətləndirilməsi faktı ortaya çıxır. Özləri-özlərinə sual versinlər ki, onlar Bu gün Ermənistana havadarlıq edənlər özləri bu suala cavab verməlidirlər: onlar Ermənistanın Azərbaycana qarşı yürütdüyü 30 illik işğalçılıq siyasəti dövründə niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nəyə görə müdafiə etmirdilər? Bakı bu sualların cavablarını gözləyir və heç zaman da imkan verilməyəcək ki, nə Ermənistan, nə də onun havadarları öz kirli məqsədlərinə nail olsunlar. Əksinə, Ermənistanın təxribatları bu ölkəyə baha başa oturacaq, bax, buna əsla şübhə etməsinlər...

*Afət Tahirqızı*

---



Elçin Bayramlı

## Qazdan ayıq olanlar

### 20 iyun qaz təsərrüfatı işçilərinin peşə bayramı günüdür

Azərbaycanda əhalinin rahat yaşayışı üçün ən vacib sahələrə kommunal təchizatla bağlı olan elektrik, təbii qaz və su təchizatı sistemləri daxildir. Bu sahələrdə son dövrlərə qədər çox ciddi problemlər var idi. Belə ki, Sovet İttifaqının dağılmasından sonra ölkədə bu sistemlər bərbad hala düşmüş, elektrik, qaz və su təchizatında çox ciddi problemlər yaranmışdı. Ölkənin çox yerində elektrik və qaz yoxa çıxmışdı, su isə əksər yerlərdə fasilələrlə verilirdi.

Getdikcə bu sahələrdə əsaslı yenidənqurmalar və bərpa işləri həyata keçirildi. İlk aradan qaldırılan elektrik problemi oldu. İçməli suyun keyfiyyəti yaxşı olmasa da, həcmi ilə bağlı problemlər aradan qaldırıldı. Bunların ardınca qaz təchizatı sistemi də yeniləndi və əhaliyə verilən qazın həcmi artırıldı. Qaz verilişinin dayandırıldığı ərazilərə yenidən qazın verilməsi bərpa olundu, heç vaxt qaz təminatı olmamış yaşayış məntəqələrinə qaz xətləri çəkildi. Bu həm əhalinin rahatlığı üçün, həm də ekologiyanın qorunması üçün çox vacib idi. Belə ki, istilik və digər məqsədlər üçün elektrik istifadəsi qazdan dəfələrlə baha başa gəlir. Bundan başqa, ucqar kəndlərə qazın verilməsi ağacların, meşələrin qırılmasına son qoydu.

Lakin qaz təchizatı sistemində problemlər tam həll olunmamışdı. Əhalidən müxtəlif məzmunlu şikayətlər gəlməkdə davam edirdi, sayğaclar, qazın verilişində fasilələr, qazın keyfiyyəti ilə bağlı və s. Lakin ARDNŞ-ın tərkibinə daxil olan Azəriqaz İstehsalat Birliyində son illərdə aparılan əsaslı islahatlar və yeni rəhbərliyin yeni yanaşması bu problemləri demək olar ki, tam aradan qaldırdı. Azəriqaz ölkədə ən şəffaf işləyən, əhali və mediaya açıq olan dövlət orqanlarından birinə çevrildi.

Son illərdə abonentlər tərəfindən edilən şikayət və müraciətlərə dərhal reaksiya verilməsi, Azəriqaz-ın rəhbər şəxslərinin mütamadi olaraq "Açıq qapı" aksiyalarında, vətəndaşlarla görüşlərdə, həmçinin sosial şəbəkələr üzərindən canlı yayımlarda şəxsən iştirakı, mərkəzi idarəyə və region idarələrinə gələn şikayətçilərin dərhal məsul şəxslər tərəfindən qəbul edilməsi təqdirəlayiq işlərdəndir və abonentlərlə İB arasında münasibətlərin yaxşılaşmasına səbəb olub.

Son illərdə Azəriqazda ciddi kadr dəyişiklikləri olub, əməkdaşların peşəkarlığı artırılıb, abonetlərlə davranış qaydaları müsbətə doğru xeyli dəyişib. Artıq qaz təsərrüfatı işçiləri abonentlərin problemlərini mümkün qədər tez aradan qaldırmaq, qaz təhlükəsizliyini təmin etmək, fasiləsiz və keyfiyyətli qaz verilməsini təmin etmək üçün həqiqətən də peşəkarlıqla çalışır.

Bütün bunlarda Azəriqaz İB-nin baş direktoru , texnika üzrə fəlsəfə doktoru Ruslan Əliyevin peşəkar idarəetmə və şəffaf fəaliyyət prinsiplərini tətbiq etməsinin məntiqi nəticəsi hesab etmək olar. Baş direktor tez-tez Azəriqazın sosial şəbəkə kanalları vasitəsilə birbaşa efirə çıxır, yüzlərlə abonentin təklif, müraciət və ya şikayətlərini oxuyur və həlli barədə yerindəcə göstəriş verir. Paytaxtda və regionlarda tez-tez keçirilən görüşlərdə də vətəndaşlarla birbaşa görüşlər təşkil edən Ruslan Əliyev bir çox problemlərin yerindəcə həllini təmin edir. Rəhbərliyin işə belə məsuliyyətli və vicdanlı yanaşması, peşəkar fəaliyyəti İB-nin bütün əməkdaşlarına da sirayət edib və abonentlər onların işindən razılığını bildirir.

Təsadüfi deyil ki, Azəriqazın apardığı maarifləndirmə, qaz sistemini yeniləmə və təhlükəsizliyin təmin edilməsi işləri nəticəsində son illərdə qazla bağlı baş verən partlayışlar, dəm qazından zəhərlənmə halları minimumadək azalıb.

Əlbəttə, iş olan yerdə problem də ola bilər və hətta olmalıdır. Elə biz də hansısa şikayət, problem olanda bunu işıqlandırır və həllinə töhfə verməyə çalışırıq. Öz təcrübəmdən dolayı bilirəm ki, Azəriqaza yönəldilən bütün problemlər qanun çərçivəsində qısa müddətdə həllini tapır.

Bütün bunları nəzərə alaraq, Azəriqazın bütün şəxsi heyətini peşə bayramları münasibətilə təbrik edir, onlara öz işlərində uğurlar arzulayıram. Necə deyərlər, sükanı belə saxlayın. Bayramınız mübarək.

# Qadın bazarı:

## fahişəlik biznesi niyə çiçəklənir?

### Ekspertlər: Problemin kəskinləşməsində əsas faktorlar sosial problemlər və mənəvi deqradasiyadır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*





Normal insan cəmiyyətinin və ailə institutunun dayaqlarına, dolayısı ilə genefonda ağır zərbə vuran fahişəlik haqlı olaraq ən böyük mənəvi problem kimi xarakterizə edilməkdədir. İnsan alverinin çiçəklənməsi üçün ən yaxşı stimul yaradan fahişəliyin tarixinin insanlığın tarixi qədər qədim olduğu bildirilir. Son vaxtlar dünyada və ölkəmizdə bu problemin aktuallaşdığını nəzərə alıb fahişəliyinin səbəblərini və problemi həll etməyin yollarını araşdırmağı məqsədəuyğun hesab etdik.

### Ən böyük mənəvi problem: dünyada real vəziyyət

Fahişəliyin yaratdığı problemlər arasında qanunsuz insan trafiki, köləlik və cinsi yolla keçən xəstəliklər əsas yeri tutur. Son vaxtlar hər 3 istiqamətdə də problemlər kəskinləşdiyindən problem daha da aktuallaşıb. Fahişəlik sosial təzahür olub qadınların nikahdankənar seks fəaliyyətinə deyilir. Ölkədən asılı olaraq, fahişəlik ya leqaldır, ya da hətta ölüm cəzası ilə cəzalandırılır.

Bir sıra ölkələrdə isə fahişəlik dövlət tərəfindən leqal biznes fəaliyyəti siyahısına salınır, məsələn İsveçrə, Tailand, ABŞ, Türkiyə kimi ölkələrdə fahişəxanalar leqal fəaliyyət göstərir.

Bir çox ölkələrdə isə (Səudiyyə, Hindistan, İran və s.) fahişələr cəmiyyətdə çox sərt reaksiya ilə üzləşir. Azərbaycan mentalitetində belə qadınlara yanaşma bir qədər sərt olsa da, sivil çərçivələri aşmır. Yalnız xəyanət halları istisnadır.

Hazırda fahişəliyin yayılması xristian ölkələrində daha çox müşahidə olunur. Bu ölkələrdə sözügedən xidmət aşkar şəkildə, bəzi ölkələrdə isə qadağan olunduğuna görə gizli şəkildə inkişaf edir.

Bəzi müsəlman ölkələrində geniş tətbiq edilən "mutaa", başqa sözlə, siğə, müvəqqəti nikahdır, burda tərəflərin heç bir məsuliyyəti yoxdur, siğə üçün molla da lazım deyil. Müqavilə çox sadədir: qadın deyir ki, "mən filan müddətə, filan mükafata sənə ərə gedirəm", kişi cavab verir ki, "mən qəbul edirəm". Siğənin müddəti danışıqdan asılıdır, 1 saat da ola bilər, 1 il də.

Ərəb ölkələrində çoxarvadlılığa icazə verilməsi də problemlər yaradır. Hətta bəzi şeyxlərin yüzlərlə arvadı olması faktı var. Bu, fahişəliyin qanuniləşdirilmiş halıdır.

Varlı ərəb ölkələrinə son zamanlar Avropa və keçmiş SSRİ məkanından qadınların axını çoxalıb. Azərbaycandan da xeyli sayda qadının bu ölkələrdə fahişəliklə məşğul olduğu məlumdur.

Hər il Azərbaycandan ərəb ölkələrinə, Türkiyəyə əxlaqsızlıq məqsədilə yüzlərlə qadın aparılır. Onların demək olar ki, təxminən yarısı işləmək və işlə təmin ediləcəyi barədə vədlərə inanaraq könüllü gedirlər. Ora çatandan sonra isə şəxsiyyət sənədləri əllərindən alınır və məcburən fahişəlik etdirilir. Digərləri isə məhz bu işlə məşğul olmaq üçün könüllü gedirlər.

### Fahişəliyə məcburetmə necə cəzalandırılır?

Qadınların cinsi istismara məruz qalması təkcə xaricə aparılma ilə məhdudlaşmır, ölkəmizdə də bu proses həyata keçirilir. Heç kimə sirr deyil ki, bu küçədə, meydanlarda, nəqliyyatda tez-tez rast gəldiyimiz, müxtəlif sahələrdə iş yerlərinin təklif olunduğu elanların böyük əksəriyyətində bir şərt qoyulur- gənc qızlar tələb olunur. Aydın məsələdir ki, belə elanlarla işəgötürən işçinin bacarığına deyil, başqa kriteriyalarına görə qiymət verir. Çünki bəzi iş yerlərində qadınlar cinsi istismara təhrik edilir.

Bir sıra obyektlər isə başqa adlar altında (otel, restoran, sauna və s) qeyri-qanuni fahişəxana fəaliyyəti göstərirlər. Bəzi hallarda bu obyektlərdə yetkinlik yaşına çatmamış yeniyetmə qızların cinsi xidmətlər göstərdiyi haqda faktlar aşkar olunur. Onların bəziləri bunu maddi ehtiyac ucbatından, bəziləri isə sadəcə əxlaqsız həyat tərzini seçdikləri üçün edirlər.

Hüquqşünas Nübar İsmayılova deyir ki, Cinayət Məcəlləsində (149, 150, 151, 152, 153 və s) insan alverinin müxtəlif formalarında təzahür edən fahişəliyə cəlb etmə, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcbur etmə, yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız hərəkətlərə cəlb etmə, yetkinlik yaşına çatmayanın alqı-satqısı və s. cinayət əməllərinə görə bir neçə müstəqil normalarda cinayət məsuliyyəti nəzərdə tutulub.



"Cinsi istismara məruz qoyulan əksər qadınlar hüquq-mühafizə orqanlarına və məhkəməyə müraciət etmirlər və bildirirlər ki, əksinə, onlar məhkəməyə müraciət edəndə rüsvay olurlar. Buna görə də, belə hallar aşkarlandıqda qarşı tərəf yüngül pul cəzası ilə yenə canını qurtarır. Qadın yenə də əzilmiş və hüquqsuz tapdanmış olaraq qalır"- ekspert bildirdi.

### "Əsas səbəb mənəvi deqradasiya və maddi imkansızlıqdır"

Hesab olunur ki, fahişəliyə səbəb yaradan əsas faktorlar mənəvi deqradasiya, sosial problemlər, asan qazanc əldə etmək arzusu, insan alveridir. Sağlam Cəmiyyət Hərəkatının (SCH) eksperti, sosioloq Lalə Mehralı deyir ki, bir çox ölkələrdə qadınları fahişəliyə cəlb edən sutenyorlar cinayət məsuliyyətinə cəlb edilir: "Çox təəssüf ki, bizdə qadınların cinsi istismara məruz qoyulmasına görə, bunu edən şəxslər cinayət məsuliyyətinə cəlb olunmur, onlara İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq cərimə tətbiq olunur".

SCH ekspertinin sözlərinə görə, cəmiyyətdə bu problemin getdikcə daha çox kəskinləşdiyi qənaəti var: "Bir neçə ay əvvəl təşkilatımızın sosial şəbəkə səhifəsində bir internet sorğusu keçirdik. Sorğuda iştirak edən 142 nəfərdən 103-ü cəmiyyətdə əxlaq kriteriyalarının dəyişməyə doğru getdiyini bildirdi, 39-u isə fahişəliyin artmasında sosial problemlərin rolunu vurğuladı. Hesab edirəm ki, hər iki faktor ciddi problemdir.

Problemin həllinə gəlincə, sosioloq hesab edir ki, həm qeyri-hökumət təşkilatları, həm də dövlət strukturları tərəfindən müxtəlif mübarizə üsulları həyata keçirilməlidir: "Adətən, bu problemin kökündə mənəvi deqradasiya, işsizlik, yoxsulluq, ailə zorakılığı, boşanmalar kimi faktorlar durur. Ən əsası da, təhsilin və hüquqi maarifləmənin aşağı olması".



Psixoloq Naib Allahverdiyevin fikrincə isə, qadına ailədə, cəmiyyətdə lazımı qədər diqqət, qayğı göstərilmirsə, qız uşaqlarına valideyn tərəfindən nəzarət edilmirsə, o zaman onların asanlıqla bu yola düşməsi faktı başadüşüləndir.

"Başqa sözlə desək, qadının ailədə qayğı görməməsi, atası, həyat yoldaşı və ya qardaşı tərəfindən cəmiyyətdən müəyyən mənada təcrid edilməsi onların yüngül həyat tərzinə marağının artmasına səbəb olur. Bu isə insan alverinə şərait yaradan əsas faktordur. Bəzi qadınlar bu cür həyatdan qurtulmaq üçün önünə gələn ilk fürsəti dəyərləndirməyə çalışır və ən dəhşətlisi də bundan sonra başlayır"- ekspert bildirdi.

### Çıxış yolu: mənəvi dəyərlərə və təhsilə üstünlük verilməli

Göründüyü kimi, fahişəliyə səbəb yaradan əsas məqamlar asan qazanc əldə etmək və əyləncəli həyat tərzi sürmək arzularıdır. Cəmiyyətdə mənəvi dəyərlərin, əxlaqi kriteriyaların ciddi şəkildə dəyişməsini, başqa sözlə azad cinsi münasibətlərə baxışın yumşalmasını da buraya əlavə etmək olar. Bunlar isə insan alverinə şərait yaradan əsas faktorlardır. Son nəticədə bu problem milli genefondumuz üçün ciddi təhlükə yaradır. Bu problemin həllində və ya tənzimlənməsində dövlətin xüsusi siyasəti olmalıdır.

Sağlam ailələrin formalaşmasına çalışan və bu istiqamətdə müxtəlif tədbirlər, layihələr həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin araşdırmalarına görə, bu kimi halların çoxalmasında qadınlara ailədə zorakılıq, təhsilin aşağı olması, öz hüquqlarını bilməməsi, qadınların ictmai həyatda zəif təmsil olunması kimi faktorlar əsas rol oynayır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkəmizdə əhalinin 52%-ni qadınlar təşkil edir, hər 1000 nəfər kişiyə 1041 nəfər qadın düşür. Ölkəmizdə qadınlar rəhbər vəzifələrdə çox az təmsil olunsalar da, bəzi sahələrdə- xüsusən humanitar və xidməti iş sahələrində üstünlük təşkil edirlər. Məsələn, təhsil sistemində- təxminən 70-80%, səhiyyədə- 60-70%, ticarət və xidmət müəssisələrində- təxminən 80%. Lakin digər sahələrdə, xüsusən də yüksək vəzifələrdə qadınların çalışması faizi çox aşağıdır.

Ümumiyyətlə, fahişəliyin artması cəmiyyət və dövlət üçün ciddi problemlər yaradır. Bunun qarşısını almaq üçün milli-mənəvi dəyərlərimə söykənərək, qadınların ailədə və ictimai həyatda normal mövqe tutmasını, gənclərin vaxtında və sağlam ailə qurmasını, boşanmaların qarşısının alınmasını təmin etmək lazımdır. Bunun üçün isə bu istiqamətdə xüsusi dövlət siyasətinin gücləndirilməsi, həmçinin maariflənmənin artırılması vacibdir.

**Elçin Bayramlı**

Səs
21 iyun
2023-cü il

# Həccə getmək üçün əsas şərtlər açıqlandı



"İlk olaraq qeyd etməliyik ki, həddi-büluğa çatanların boynuna Həcc ziyarəti gəlir. Həcc eynilə namaz, oruc kimi vacib olan ibadətlərdən biridir. Ola bilər ki, Həccə gedənlər özləri ilə azyaşlı uşaqlarını da aparsınlar. Amma nə qədər ki oğlanın yaşı 15-dən, qızın yaşı isə 9-dan aşağıdır, onun boynunda Həcc vacibat olmur". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.

Onun sözlərinə görə, uşaq vaxtı getməklərinə baxmayaraq həddi-büluğa çatdıqdan sonra onların boynuna yenə də Həcc ziyarəti gəlir: "Həccə getmək üçün əsas şərtlər odur ki, maddi durumu yüksək olmalı, həddi-büluğa çatmalıdır. Qurban bayramında insan Həcdə olmalı və qurbanı Məkkə yaxınlığında yerləşən Mina dağında kəsməlidir. Buna böyük Həcc deyilir. Kiçik Həcc isə Ümrə ziyarətinə deyilir. İnsan bu ibadəti yerinə yetirsə belə boynunda böyük Həcc qalır. Çünki ən vacibi böyük Həcc dediyimiz ziyarətdir".

Qurum rəsmisi sözlərinə davam edərək bildirib ki, əgər bir insanın maddi durumu yaxşı deyilsə, onun üçün Həcc ziyarəti vacib sayılmaz: "Həcc ibadəti Məkkədə tamamlanır. Daha sonra ziyarətçilər Mədinəyə yola düşürlər. Orada Peyğəmbər məzarını ziyarət edirlər. Mədinədə olan ziyarətlər savabdır. Ümumilikdə Qurban bayramından 10 gün qabaq Həccə gediş başlayır, bayramdan 10 gün sonra isə insanlar ziyarətdən Vətənə qayıdırlar".

*Ləman Əlizadə*



# DİQQƏT:
## Bu ölkələrin vətəndaşları Azərbaycanda yaşamağa maraq göstərir

"Bəzi ölkələr var ki, Azərbaycan onlar üçün imkanlar və fürsətlər ölkəsidir. Onlar eyni zamanda Azərbaycana digər ölkərə keçmək və daimi, yaxud uzunmüddətli yaşamaq üçün cəhd edirlər". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib. Ceyhun Aşurov sözlərinə belə davam edib: "Daha çox Pakistan və Hindistandan olan insanları ölkəmizdə müşahidə edirdik. Onlar da burada iş qurmaq, şirkət yaratmaq və bu şirkət əsnasında daimi yaşayış əldə etmək istəyirdilər. Həmçinin, Türkiyədən də ölkəmizə əvvəldən iş adamları gəlib iş qurur. Onlar Azərbaycanı əlverişli imkanları olan ölkə kimi dəyərləndirirlər.

Xüsusən biz bura evlilikləri də aid edə bilərik. Adını çəkdiyim ölkələrlə qarşılıqlı evlilik əsasında qohumluq əlaqələri yaranır. Qərar olaraq ya azərbaycanlılar Türkiyəyə, yaxud da Türkiyədəki insanlar evlilik səbəbindən Azərbaycanda yaşayıb iş qurmağı üstün tuturlar".

Ceyhun Aşurov sözlərinə belə davam edib: "Son dövrlər ölkəmizdə müharibə ilə əlaqədar olaraq Rusiya və Ukraynadan olan vətəndaşları da görürük. Onlar çox deyil, amma həmin ölkələrin nümayəndələri miqrant kimi gəlsələr də bizneslərini ölkəmizə gətirib işlər qurmağı planlaşdırırlar. Bu tendensiya yəqin ki bir müddət davam edəcək. Ölkəmizdə daha çox yaşayanlar evlilik əlaqəsi olanlardır. Onlar artıq gələcək həyatlarını Azərbaycanla bağlayırlar. Bura İran vətəndaşları da aiddir ki, ölkəmizdən mənzil alıblar, yaxud evlilik əlaqəsi qururlar. Hal-hazırda İran vətəndaşları azdır. Əvvəldən qalanlar isə burada öz işlərinə davam edirlər",



# Modriç ərəblərin 200 milyon dollarlıq təklifini rədd etdi!

Ərəb klublarının ulduz futbolçuları astronomik qiymətə satın alması artıq dünya futbolunu mənasız personaja çevirib. Həm futbola maraq itib, həm də "hər şey puldur" prinsipini hakim kəsdirib dünya futboluna. Amma ərəblərin fantastik təkliflərini geri çevirən, öz futbolçu imicini yüksək tutanlar da tapılır. 2012-ci ildən bəri Madrid "Real"ında çıxış edən, kral klubu ilə düz 5 dəfə UEFA Çempionlar Liqasını başı üzərinə qaldıran, ən əsası 37 yaşında hələ də oynadığı futbol ilə diqqətləri cəlb edən Luka Modriç Səudiyyə Ərəbistanının "Al Hilal" klubunun 200 milyon avroluq təklifini rədd edib. Xorvatiyalı ulduz futbolçu koryerasını Avropada davam etdirəcəyini açıqlayıb.

# Arıqlama çayı insana necə təsir göstərir?

*DİETOLOQ DANIŞDI*

"Müasir dövrümüzdə ən böyük bəlalardan biri də bəzi insanların, xüsusilə də qadınların sonunu düşünmədən arıqlamaq üçün qeyri-sağlam yollara əl atmasıdır. Artıq çəkidən azad olmaq istəyən insanlar arasında populyar olan, çox istifadə edilən arıqlama dərmanları və çayları bəzi problemlərə səbəb ola bilir". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Sevinc Həsənzadə deyib.

Onun sözlərinə görə, arıqlamaq istəyi



insanları reseptsiz, həkim məsləhəti olmadan dərman qəbul etməyə sövq edir: "Arıqlama çaylarından istifadə zamanı iştaha süni şəkildə təsir edildiyi üçün anidən şəkər düşməsi, təzyiqin oynaması, eləcə də huşu itirmə kimi hallara da rast gəlmək mümkündür. Bu dərmanlar xüsusilə də qaraciyər və böyrək çatışmazlığı, bağırsaqda isə yara yarada bilər".

Dietoloq sözlərinə davam edərək bildirib ki, ona görə də arıqlamaq uğruna sağlamlığınızdan olacaq şeylərdən istifadə etməyin: "Unutmaq olmaz ki, sağlam qidalanma və aktiv idmandan başqa hansısa çaydan və ya dərmandan möcüzə gözləmək orqanizmdə ömürlük fəsadlar yarada bilər. Ona görə konkret öz fikrimi deyə bilərəm ki, bu çayların içilməsinin əleyhinəyəm. Tibdə arıqlamaq üçün kimyəvi sınaqlardan keçmiş dərmanlardan istifadə olunur. Bu səbəbdən də həkimlə məsləhət etmədən heç bir dərman və ya arıqladıcı vasitədən istifadə etməyi məsləhət görmürəm".

*Ləman Əlizadə*

# "Taksi sürücülərini hədəf götürmək doğru deyil"




"Hazırda taksi sürücülərini təşkil edən kontingent ən müxtəlif peşə sahiblərindən təşkil olunub. Onların arasında müəllim də, həkim də, əlində heç bir sənəti olmayan işsiz adamlar da var. Mən bunu normal qarşılayıram, əsas odur ki, insanlar halal zəhmətlə, heç kimin cibinə girmədən pul qazanırlar". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.

Seymur Verdizadə sözlərinə belə davam edib: "Mənə elə gəlir ki, taksi sürücülərinin fəaliyyətini məhdudlaşdırmaq, onların meydanını daraltmaq doğru deyil. Çünki minlərlə insan bu sahədən evinə çörək aparır. Əgər xaos, intizamsızlıq varsa, bunu aradan qaldırmaq lazımdır. Bütövlükdə taksi sürücülərini hədəfə götürmək, onların əl-qolunu bağlamaq doğru deyil.

Bəzi insanlar var ki, ali təhsillidir, rəsmi iş yeri var. Amma onlar da işdən sonra taksi fəaliyyəti ilə məşğul olurlar. Çox qazanmaq üçün çox işləmək lazımdır. Buna görə kimisə qınamaq səfehlikdir. Əlbəttə, mən arzu edərdim ki, insanlar öz peşələri ilə məşğul olub yaxşı yaşasınlar, sutkanın 12-14 saatını işləməsinlər. Reallıq isə budur ki, işləməliyik. Kim hansı işi bacarırsa, onu da görür. Biz işləyənləri deyil, işləməyib başqalarından pul istəyənləri qınamalıyıq".

*A. Vəli*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000